KHAZAR REVIEW
№ 392 Fevral 2020

# XƏZƏR XƏBƏR



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org

AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT NAZİRLİYİ

AZƏRBAYCAN MİLLİ XALÇA MUZEYİ


Afaq Kərimova

xalçaçı-rəssam


Mühazirə

# Afaq Kərimova yaradıcılığında süjetli xalçalar














Mətn səh.66-da

The Article in page 66

# İÇİNDƏKİLƏR


"Dünya"məktəbi şagirdlərinin uğuru . . . . . . . . . . 4

"Hackathon 2019-Khazar" yarışması . . . . . . . . . . 6

Universitet xəbərləri . . . . . . . . . . 8

Tələbələr şagirdlərin qonağı oldular. . . . . . . . . . 10

Xəzər Universitetinin əcnəbi tələbəsi Qlobal Platformaya səfir seçildi. . . . . . 13

Fraqş-ın milli koordinasiya görüşü . . . . . . . . . . 14

MƏFAM-ın təşəbbüsü ilə Xosrov Sərtipinin təqdimatında "Nəbati yaradıcılığında eşq"adlı tədbir. . . . . . . . . . 18

Cbelt layihəsinin açılış mərasimi. . . . . . . . . . 24

Türkiyə səfirliyinin təhsil üzrə müşaviri Xəzər Universitetində . . . . . . . . . . 26

Aynurə Musayeva Boulis: "Özün qurduğun iş üçün çalışanda, saata diqqət yetirmirsən" (*Xəzər Universitetinin məzunu ilə müsahibə*) . . . . . . . . . . 32

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun xəbərləri . . . . . . . . . . 40

Xəzər Universitetinin elmi uğurları və Təbriz Universiteti ilə əməkdaşlığa həsr edilmiş konfrans . . . . . . . . . . 44

NDU xəbərləri . . . . . . . . . . 52

Milli Xalça Muzeyində "Afaq Kərimovanın yaradıcılığında sujetli xalçalar" mövzusunda təqdimat . . . . . . . . . . 66

"Hansı insan məntiqli olmağı məntiq dərsi keçməklə öyrənib?" -Təsisçi narazıdır (*Professor Hamlet İsaxanlı ilə müsahibə*) . . . . . . . . . . 70

İraq səfiri Xəzər Universitetində . . . . . . . . . . 72

*Roman Sençin.* Nikolay Sergeyeviçin həyatı və işi (*hekayə*) . . . . . . . . . . 73



1995-ci ilin
yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

Redaksiya heyəti:
İsa Həbibbəyli
Alla Axundova
Şahin Fazil
Knyaz Aslan

İngilis dilində
mətnlərin redaktoru:
Gülşən Kulaxmet

Kompüter tərtibatçısı:
Günel Əkbərova

Foto:
Multimedia Mərkəzi



Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org



Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published
since January 1995

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isaxanli

Associate editor:
Alirza Balayev

Editorial members:
Isa Habibbayli
Alla Akhundova
Shahin Fazil
Knyaz Aslan

Editor of English Texts:
Gulshan Kulakhmet

Computer graphics:
Gunel Akbarova
Photo:
Multimedia Centre




# "DÜNYA" MƏKTƏBİ ŞAGİRDLƏRİNİN UĞURU

# SUCCESS OF "DUNYA" SCHOOL STUDENTS

2019-cu il dekabrın 23-27-də "Grandmaster" Şahmat klubunda Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş Bakı şəhəri üzrə təsnifat turniri keçirildi.

Bu turnirdə "Dünya" məktəbinin şagirdləri uğurla çıxış edərək, iki medalla təltif olundular. 2-ci dərəcə uğrunda yarışlarda rus bölməsinin 2-ci sinif şagirdu Raul Mansurov II yerə, IB bölməsinin 5-ci sinif şagirdi Yusif Şükürlü isə III yerə layiq görüldülər. Bununla da Raul və Yusif II dərəcə normasını yerinə yetirmiş oldular.

December 23-27, 2019 "Grandmaster" Chess Club held a qualifying tournament in Baku dedicated to the International Solidarity Day of Azerbaijanis.

"Dunya" School students successfully performed in this tournament and were awarded with two medals. Raul Mansurov, 2[nd] grade student of the russian division, was awarded the II place, and Yusif Shukurlu, 5[th] grade student of the IB division – the III place. Thus, Raul and Yusif have fulfilled the II degree norm.





# TƏHSİL DEPARTAMENTİNİN TƏLƏBƏLƏRİ DİSSERTASİYA MÜDAFİƏ ETDİLƏR

# EDUCATION DEPARTMENT'S STUDENTS DEFENDED THEIR THESES

2019-cü il dekabrın 27-də Xəzər Universiteti Təhsil departamentinin üç magistr tələbəsinin dissertasiya müdafiəsi keçirildi.

Təhsilin idarə edilməsi ixtisasi üzrə magistrant Nərmin Zari "Azərbaycanda sağlamlıq imkanları məhdud uşaqların təhsilinin idarə olunmasında Amerika modeli təklifi" mövzusunda professor Piralı Əliyevin, Pedaqogika tarixi və nəzəriyyəsi ixtisası üzrə Günay Qədimova "IX sinif ingilis dili dərsliyində dörd dil bacarığının formalaşdırılması səviyyəsi" və Səbinə Aslanova "4-cü sinif həyat bilgisi fənn kurikulumunda və dərsliyində dəyərlərin reallaşdırılması səviyyəsi" mövzularında dissertasiyalarını dosent Elza Səmədovanın elmi rəhbərliyi ilə uğurla müdafiə etdilər.

Müdafiə prosesinə Dissertasiya müdafiə komissiyasının üzvləri professor Piralı Əliyev, Ph.D Afət Süleymanova, Ph.D Bahman Amani, dosent Elza Səmədli, dosent İsaxan İsaxanlı ilə yanaşı, dosent Ülviyyə Mikayılova (ADA Universiteti), Gülbəniz Camalova (ADU) və Elnurə Əzizova (İlahiyyat İnstitutu) da kənar ekspert və rəyçi olaraq cəlb edilmişdilər.

On December 27, 2019, three Master's students from Khazar University Department of Education defended their theses. Narmin Zari, master student majoring in Education Management, successfully defended her thesis on "The American Model Proposition for the Management of Education of Children with Disabilities in Azerbaijan" under the supervision of Professor Pirali Aliyev.

Under the supervision of Elsa Samadov, Associate Professor in History and Theory of Pedagogy, Gunay Gadimova, defended her master thesis on "The Formation Level of Four Languages Skills in English textbook of 11$^{th}$ Grade", and Sabina Aslanova defended master thesis on "Level of Realization of Values in 4$^{th}$ grade Life Science Curriculum and Textbook".

Thesis Defense Commission members included Professor Pirali Aliyev, PhD Afet Suleymanova, Dr. Bahman Amani, Associate Professor Elza Samedli, Associate Professor Isakhan Isakhanli, as well as external experts and reviewers such as Associate Professor Ulviyya Makayilova (ADA University), Gulbeniz Jamalova (ASU), and Elnura Azizova (Theology Institute) were also involved.



# "HACKATHON 2019-KHAZAR" YARIŞMASI

# HACKATHON 2019-KHAZAR COMPETITION

2019-cu il dekabrın 26-27-də Xəzər Universitetində ilk dəfə "Hackathon 2019-Khazar" adlı yarışma keçirildi. İki gün davam edən yarışmanın əsas məqsədi qeydiyyatdan keçmiş komandaların iki gün ərzində öz məhsulunu münsiflərə təqdim etmələri idi. Münsiflər heyəti qismində Grand Motors LLC-nin şirkətinin HR assistenti İlkin Cavadzadə, Bakcell "Applab" əlavələrin inkişafı üzrə menecer Orxan Babayev, ATL TECH şirkətinin Texnologiyalar üzrə direktoru Vurğun Hacıyev və digərləri iştirak edirdilər.

Yarışmanın ikinci günündə artıq 3 komanda –"Robid food", "Intelligence" və "PsychoLab" öz məhsullarını münsiflərə təqdim etdilər. Yarışmanın qalibinə –"Intelligence" komandasının üzvlərinə bitirdikləri məhsula və təqdimatlarına görə Xəzər Universitetinin pul mükafatı verildi. Digər komandalar da sertifikat və hədiyyələrlə təltif olundular.

Sonda münsiflər və komanda üzvləri ilə növbəti əməkdaşlıqlar və iş imkanları haqqında müzakirələr aparıldı.

On December 26 and 27, 2019, "Hackathon 2019 - Khazar" Competition was held for the first time at Khazar University. The main purpose of the two-day competition was to provide the registered teams opportunity to present their products to the jury within two days. The members of the jury, consisted of Ilkin Javadzade, HR Assistant at Grand Motors LLC, Orkhan Babayev, Backcell "Applab" Development Manager, Vurgun Hajiyev, Technology Director at ATL TECH Company, and others.

On the second day of the competition, three teams - "Robid Food", "Intelligence" and "PsychoLab" - presented their products to the jury. The winner of the competition - the "Intelligence" team - was presented a cash prize for the created products and for their presentation by Khazar University. Other teams were also awarded with certificates and prizes.

In the end, the jury and team members also discussed further cooperation and job opportunities.




TOSHIBA


E-TEAM





# UNİVERSİTETİN MÜƏLLİMİ "MƏN, SƏN, O" PROQRAMINA MÜSAHİBƏ VERDİ

# KHAZAR UNIVERSITY TEACHER GAVE INTERVIEW TO "I, YOU, HE/SHE"

2019-cu il dekabrın 27-də Xəzər Universitetinin Psixologiya departamentinin müəllimi və doktorantı Nilufər Əlizadə Azərbaycan Televiziyasında yayımlanan "Mən, sən, o" proqramına müsahibə verdi. Xəzər Universitetində ilk dəfə keçirilən "Hackathon 2019-Khazar" yarışması haqqında məlumat verən Nilufər Əlizadə bunun tələbələrin həm sosial həyatını aktivləşdirmək, həm də yeni iş perspektivləri üçün əhəmiyyətindən danışdı. Verilişdə yarışda iştirak edən komanda üzvləri də müsahibə verərək, Xəzər Universitetində belə bir yarışmada iştirak etdiklərindən məmnun olduqlarını bildirdilər.

Maraqlananlar proqramı bu link vasitəsilə izləyə bilərlər:

*https://www.youtube.com/watch?v=aGg4bd4UByo&t=4s*

On December 27, 2019, Nilufar Alizade, an instructor and PhD student at Khazr University Department of Psychology, gave an interview to the "I, You, He/She" program which is broadcasted on Azerbaijan Television. Speaking about the first "Hackathon 2019-Khazar" competition at Khazar University, Nilufar Alizadeh emphasized the importance of this for both students' social activism and new business prospects. Team members who took part in the contest also shared their views during the interview and expressed their satisfaction with participating in such a contest at Khazar University.

Those who are interested in the program can follow it through this link:

*https://www.youtube.com/watch?v=aGg4bd4UByo&t=4s*

# FOLKLOR TƏDQİQATÇISININ MƏQALƏSİ ÇAP OLUNUB

# ARTICLE BY FOLKLORE RESEARCHER PUBLISHED

Xəzər Universitetinin müəllimi Elza İsmayılovanın "Koroğlu" dastanında qılınc motivi" adlı məqaləsi Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun "Dədə Qorqud" elmi-ədəbi jurnalında (2019-cu il, I (64) səh.91) nəşr olunmuşdur.

Məqalədə "Koroğlu" dastanının Azərbaycan və türk versiyalarındakı qılınc motivləri, xüsusilə, "Misri" qılıncın etimologiyası araşdırılır. Dastanın Azərbaycan və türk mətnlərində eyni silahlardan, eyni döyüş alətlərindən istifadə edildiyi, hər iki mətndə silah motivlərinin bənzərliyi qeyd olunur. Müəllif bununla türk və Azərbaycan xalqlarının eyni mədəniyyətin və etnik kimliyin daşıyıcısı olduğunu sübut edir.

Article by Elsa Ismayilova, Khazar University teacher, entitled "Sword Motive in the "Koroglu" Saga" was published in the "Dede Gorgud" Scientific and Literary Journal of the Institute of Folklore of the Azerbaijan National Academy of Sciences (2019, I (64) p. 91).

The article examines the underlying concept of the sword in the Azerbaijani and Turkish versions of the "Koroglu" epic, especially the etymology of the "Misri" sword. The Azerbaijani and Turkish texts of the epic used the same weapons and the same armament, and both texts are similar in the motives of the weapons. The author thus proves that the Turkic and Azerbaijani peoples are the bearers of the same culture and ethnic identity.



## XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞI LİONDA KEÇİRİLMİŞ BEYNƏLXALQ KONFRANSDA

## KHAZAR UNIVERSITY STAFF MEMBER AT INTERNATIONAL CONFERENCE IN LYON

2019-cu il dekabrın 27-də Fransanın Lion şəhərindəki Lumiere Lyon-2 Universitetində "Alplar-Qafqaz çarpaz tədqiqatlar - Qafqazın qədim tarixi" mövzusunda beynəlxalq elmi konfrans keçirilib. Beynəlxalq tədbirdə Fransa, ABŞ və İran İslam Respublikasından olan arxeoloqlar və tarixçilər iştirak ediblər. Konfransda ölkəmiz Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun şöbə rəhbəri, arxeoloq Abuzər Ələkbərov və Xəzər Universitetinin əməkdaşı Nuridə Ataşi ilə təmsil olunub. Nuridə Ataşi konfransda Son Tunc - Erkən Dəmir dövrü Xocalı-Gədəbəy mədəniyyətinin bəzi aspektləri barədə çıxış edib.

AZƏRTAC və *tehsil-press.az* tədbir haqqında xəbər yaymışlar:

*http://www.cbc.az/az/az/news/fransada-kerln-elm-konfransda-azrbaycan-abdlrndn-daniilib1577431363*
*http://tehsilpress.az/index.php?newsid=45761#newsbase1*

On December 27, 2019 an International Scientific Conference on "Alplar-Caucasus Cross-sectional Research - the Ancient History of the Caucasus" was held at the University of Lumiere Lyon-2 in France. Archeologists and historians from France, the United States and the Islamic Republic of Iran participated in the international event. Azerbaijan was represented by archeologist Abuzar Alekperov, the Head of the Department of the Institute of Archeology and Ethnography of the Azerbaijan National Academy of Sciences, and Nurida Ateshi, Khazar University staff member. Nurida Ateshi delivered report on some aspects of Khojaly-Gadabay culture of the Last Bronze - Early Iron Age at the Conference.

AZERTAC and *tehsil-press.az* have spread the news on the event:

*http://www.cbc.az/az/az/news/fransada-kerln-elm-konfransda-azrbaycan-abdlrndn-daniilib1577431363*
*http://tehsilpress.az/index.php?newsid=45761#newsbase1*



# TƏLƏBƏLƏR ŞAGİRDLƏRİN QONAĞI OLDULAR

# STUDENTS PAID VISIT TO SCHOOL CHILDREN

2019-cu il dekabrın 29-da Xəzər Universitetinin Psixologiya departamentinin müəllimi və doktorantı Nilufər Əlizadənin təşkilatçılığı ilə Maştağa qəsəbəsində yerləşən 128 nömrəli məktəbin 6-cı sinif şagirdləri ilə görüş keçirildi.

Xəzər Universitetinin tələbələrinin də iştirak etdiyi tədbirdə aztəminatlı ailələrin övladlarına bayram hədiyyələri təqdim olundu. Şaxta Baba və klounun iştirak etdiyi tədbirdə uşaqlar da öz bacarıqlarını göstərməyə imkan tapdılar.

Məktəb rəhbərliyi, müəllimlər və şagirdlər Xəzər Universitetinin bu addımını yüksək qiymətləndirərək, öz təşəkkürlərini bildirdilər.

On December 29, 2019, 6th grade students from school No. 128 in Mashtaga settlement were paid visit, upon the arrangements made by Nilufar Alizade, an instructor and PhD student at Khazar University's Department of Psychology. The event was attended by Khazar University students on behalf of University staff who presented holiday gifts to children from low-income families. Moreover, at the event with Santa Claus and the clown, the children had the opportunity to show their talents. School management, teachers and students highly appreciated this contribution of Khazar University and expressed their gratitude.







# DEPARTAMENT MÜDİRİ TÜBİNGEN UNİVERSİTETİNDƏ SEMİNAR KEÇİRDİ

# HEAD OF DEPARTMENT DELIVERS SEMINAR AT TÜBINGEN UNIVERSITY

Yanvarın 7-də Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Elmar Mustafayev Almaniyanın Tübingen Universitetində Azərbaycanın xarici siyasəti mövzusunda seminar keçirərək, mühazirə oxudu.

Seminarda iştirak edən tələbələr Tübingen Universitetinin magistratura pilləsində təhsil alırlar və bu il Nyu York şəhərində keçiriləcək Birləşmiş Millətlər Təşkilatı Modelində Azərbaycan nümayəndə heyətini təmsil edəcəklər. Seminarda əsas müzakirə mövzuları "Azərbaycanın balanslaşdırılmış çoxvektorlu xarici siyasəti", "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və münaqişənin regional təhlükəsizliyə təsirləri", "Azərbaycanın regional və xarici aktorlarla ikitərəfli münasibətləri", "Şərq Tərəfdaşlığı və Avropa İttifaqı-Azərbaycan münasibətləri", "Azərbaycanın enerji siaysəti" və "Beynəlxalq nəqliyyat dəhlizi olaraq Azərbaycanın rolu" idi.

Seminar yuxarıda qeyd edilən mövzular ətrafında sual-cavab və müzakirələrlə başa çatdı.

*Tehsil-press.az* tədbir haqqında xəbər yaymışdır:

*http://tehsilpress.az/index.php?newsid=46148#newsbase1*

On January 7, Dr. Elmar Mustafayev, Chair of the Political Science and Philosophy Department, delivered a seminar on "Foreign Policy of Azerbaijan" at Tübingen University in Germany.

Attendees of the seminar were the MA students of Tübingen University that will represent the Azerbaijani Delegation at the Model of United Nations to be held in New York. The seminar was focused on balanced multi-vector foreign policy of Azerbaijan, Nagorno-Karabakh conflict and its implications to the regional security, bilateral relations of Azerbaijan with regional and external actors, the Eastern Partnership and the EU-Azerbaijan relations, energy policy of Azerbaijan, and the role of Azerbaijan as a transport corridor between Europe and Central Asia, and between Russia and the Middle East.

The seminar was followed by a Q&A session and debate on the above-mentioned topics.

*Tehsil-press.az* spread information on the event:

*http://tehsilpress.az/index.php?newsid=46148#newsbase1*

# MÜASİR MEXANİKA LABORATORİYASI FƏALİYYƏTƏ BAŞLADI

# MODERN MECHANICS LABORATORY LAUNCHED

Yanvarın 9-da Xəzər Universitetində Təbiət elmləri və mühəndislik fakültəsinin sifarişi əsasında Türkiyənin DOTEK Şirkəti tərəfindən hazırlanmış müasir mexanika laboratoriyası fəaliyyətə başladı. DOTEK Şirkətinin Baş meneceri Semih Özşuca iki gün ərzində qurulmuş laboratoriyanın detalları və işləmə qaydaları haqqında universitet rəhbərliyinə geniş məlumat verdi.

Təqdimatda universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, universitetin rektoru dosent İradə Xəlilova, Tətbiqi elmlər və mühəndislik fakültəsinin dekanı Hassan Niknafs, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Mexanika departamentinin koordinatoru Mehdi Kiasaftar iştirak edirdilər.

Təqdimatın sonunda H.İsaxanlı DOTEK şirkətinin nümayəndəsinə təşəkkürünü bildirdi.

On January 9, a modern mechanics lab, developed by Turkey's DOTEK Company, was launched at Khazar University under the initiative of the School of Sciences and Engineering. Semih Özşuca, General Manager of DOTEK, informed the University Leadership about the details of the laboratory, installed within two days, and also provided operating manuals.

Professor Hamlet Isakhanli, the Founder of the University and Chairman of its Board of Directors and Trustees, Professor Irada Khalilova, Rector of the University, Hassan Niknafs, Dean of the School of Applied Sciences and Engineering, and Alovsat Amirbeyli, Director for Public Relations and Media, Mehdi Kiasaftar, Coordinator of the Department of Mechanics participated during the presentation.

At the end of the presentation H. Isakhanli expressed his thanks to the representative of DOTEK.

# XƏZƏR UNİVERSİTETİNİN ƏCNƏBİ TƏLƏBƏSİ QLOBAL PLATFORMAYA SƏFİR SEÇİLDİ




Azərbaycanı Gəncliyin İmkanları (Youth Opportunities) layihəsi çərçivəsində təmsil edən Xəzər Universitetinin neft mühəndisliyi ixtisası üzrə 1-ci kurs magistr tələbəsi İmtiaz Əhməd Qlobal Gənclər səfiri seçildi. Gəncliyin İmkanları layihəsi dünyada gənclər üçün ən böyük imkan yaradan platformalardan biridir. Milyonlarla gənc özünü davamlı inkişaf etdirmək, ödənişsiz və vacib təhsil əldə etmək üçün ən təsirli platforma olan Gəncliyin İmkanları layihəsindən faydalanmışdır. Aşağıda İmtiaz Əhmədin bəyanatını təqdim edirik:

"Allahın yardımı, öz zəhmətim və ailə üzvlərimin duaları ilə bu vəzifəyə çatmağı bacardım. Xəzər Universitetinin pakistanlı tələbəsi kimi tarixi münasibətlərimiz olan qardaş bir ölkənin gəncləri üçün işləmək mənim üçün şərəfdir.

Bir tələbə olaraq, gəncləri maraqlandıran müxtəlif imkanlarla bağlı qarşılaşdıqları problemlərdən xəbərdaram. Bir çox tələbə prosesi və lazımi kanalları bilmədiklərinə görə fürsətlərdən istifadə edə bilmirlər. Bu, heç də onların öz işlərini dərindən bilmədiklərinə görə deyil.

Həmçinin, mən artıq Xəzər Universiteti Beynəlxalq Tələbə Birliyinin (BTB) rəhbəri olaraq gənclərin inkişafı üçün çalışıram. İndi Gəncliyin İmkanları Təşkilatının bir səfiri olaraq, bu platformanı həmkarlar ittifaqı və digər yerli və beynəlxalq təşkilatlarla qarşılıqlı şəkildə təşkil olunan gənclik tədbirləri ilə əlaqələndirəcəyəm. Gəncliyin İmkanları vasitəsilə prosedur tətbiq etməklə yanaşı, müxtəlif yerli və beynəlxalq gənclər proqramları haqqında məlumat verərək, tələbələrin gələcək uğurlu səyahətlərinə töhfə verəcəyəm.

Bundan əlavə, gəncləri fürsətləri nailiyyətlərə çevirməyə təşviq etmək mənim kollektivim və güclü əməkdaşlığım sayəsində mümkün olacaq və bu, mənim hədəfimdir".

# KHAZAR UNIVERSITY INTERNATIONAL STUDENT ELECTED AMBASSADOR TO GLOBAL PLATFORM

Khazar University 1st year MSc. student majoring in Petroleum Engineering was selected as Global Youth Ambassador for Youth Opportunities representing Azerbaijan. Youth Opportunities is one of the largest opportunity discovery platforms for youth across the world. Millions of youth have benefited from Youth Opportunities as the most effective platform to find latest opportunities for free and avail important educational contents for continued self-development. Below we are presenting Imtiaz Ahmed's statement:

"By the grace of God, my hard work and family prayer made me able to achieve this position. As an international student of Khazar University from Pakistan, it's an honour for me to work for the youth of a country, which we have brotherly and historical relations with.

As a student, I am aware of the problems, youth is facing pertaining to different opportunities of their interest. Many students were unable of grabbing the opportunities, not because they are not good in their studies, but because they don't know the process and proper channel.

Besides, I am already making contribution for the youth development as a Head of Khazar University International Student Union (ISU). Now, as an Ambassador of "Youth Opportunities" Organisation, I will collaborate this platform with my Union and other local and international organisations to mutually organised youth events. Through Youth Opportunities, I will contribute to their successful future journey by providing awareness about various local and international youth programs besides, applying procedure.

Moreover, encouraging youth to convert opportunities into achievements will be my goal, that will be made possible through my teamwork and strong collaboration.'






# FRAQŞ-IN MİLLİ KOORDİNASİYA GÖRÜŞÜ

# NATIONAL COORDINATION MEETING OF GNDR

Yanvarın 11-də Xəzər Universitetində Ətraf Mühitin Tədqiqi Mərkəzinin təşkilatçılığı ilə Fəlakət Riskinin Azaldılması üzrə Qlobal Şəbəkənin (FRAQŞ) *(Global Network of Civil Society Organizations for Disaster Reduction (GNDR)* milli koordinasiya görüşü keçirildi.

Görüşdə QHT sektorunun, universitetlərin və elmi-tədqiqat institutlarının 30-dan çox nümayəndəsi iştirak etdirdi. Tədbiri Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov açaraq, GNDR və onun regionda rolu haqqında iştirakçılara ətraflı məlumat verdi.

Sonra çıxışlar dinlənildi. R.Abbasov "Zəiflik və fəlakət riskləri. Fəlakət risklərinin uşaq mərkəzli idarə olunması"; Azərbaycan Coğrafiya Cəmiyyətinin nümayəndəsi Rövşən Kərimov "Azərbaycanda təbii fəlakətlər"; Təbii Fəlakət Riskinin Azaldılması üzrə ekspert Samir Abbasov "Su mənşəli təbii fəlakətlər. Daşqınlar və onların idarə olunması"; BDU-nun dosenti Vüqar Dərgahov "Antropogen yüklənmə, təbii fəlakətlər və rekreasiya potensialında dəyişmələr"; Xəzər Universiteti Neft-qaz mühəndisliyi departamentinin müdiri Qəşəm Zeynalov "Azərbaycanda geoloji təhlükələr" mövzularında çıxış etdilər.

Qadınlar Arasında Həmrəylik İctimai Birliyinin nümayəndəsi Ruhəngiz Hüseynova və Sudan İstifadə üzrə Mütəxəssislər Birliyinin nümayəndəsi Rəşail İsmayılov təmsil etdikləri birliklərin iş təcrübəsini iştirakçılarla bölüşdülər.

Görüş zamanı maraqlı müzakirələr aparıldı və Milli Koordinasiya şəbəkəsi təsis edildi.

On January 11, the National Coordination Meeting of the Global Network of Civil Society Organizations for Disaster Reduction (GNDR), was held at Khazar University, being organized by the Environmental Research Center. More than 30 representatives from NGOs, universities and research institutes attended the meeting. Initially, Rovshan Abbasov, the Head of the Department of Geography and Environment at Khazar University, provided a detailed information for the representatives on GNDR and its role in the region. Further on following experts delivered talks on such issues as: R. Abbasov, "Vulnerability and Disaster Reduction. Disaster Reduction and Child-centered Management"; Rovshan Karimov, Representative of the Azerbaijan Geographic Society, "Natural Disasters in Azerbaijan"; Samir Abbasov, Natural Disaster Risk Reduction Expert "Natural Disasters of Aquatic Origin. Floods and their Management"; Associate Professor Vugar Dargahov from BSU, "Anthropogenic Loading, Natural Disasters and Changes in Recreational Potential"; Gasham Zeynalov, Head of the Petroleum and Gas Engineering at Khazar University, "Geological Hazards in Azerbaijan".

Ruhangiz Huseynova, Representative of the Women's Solidarity Public Association, and Rashail Ismailov, Representative of Water Usage Specialists Association, shared the experience of the unions they represent.

During the meeting, interesting discussions were held and the National Coordination Network was established.





















# "DÜNYA" MƏKTƏBİNDƏ TƏHSİL İNSTİTUTU ƏMƏKDAŞININ ŞAGİRDLƏRLƏ GÖRÜŞÜ

# MEETING OF INSTITUTE OF EDUCATION REPRESENTATIVE WITH "DUNYA" SCHOOL STUDENTS

Yanvarın 14-də "Dünya" məktəbində Azərbaycan Respublikası Təhsil İnstitutunun İstedadlı uşaqlarla iş şöbəsinin müdiri, Respublika və Beynəlxalq fənn olimpiadaları üzrə koordinator Fuad Qarayevin istedadlı şagirdlərlə görüşü keçirildi.

Görüşdə layihələrdə, müsabiqələrdə və olimpiadalarda iştirak etməyin təhsildə və ümumiyyətlə həyatda əhəmiyyətindən söhbət açıldı. Mövzu ətrafında geniş müzakirələr aparıldı.

On January 14, meeting of Fuad Garayev, the Head of the Department for Work with Talented Children of the Institute of Education of the Republic of Azerbaijan, Coordinator for the Republican and International Subject Olympiads, was held with the talented students at the "Dunya" School.

The importance of participation in projects, contests and olimpiads was discussed at the meeting. There was extensive discussion around the topic.










# İRANIN GÖRKƏMLİ NƏBATİŞÜNASI MƏFAM-IN QONAĞI OLDU

# IRANIAN PROMINENT SCHOLAR OF NABATI STUDIES VISITED MAFAM

Yanvarın 14-də Xəzər Universiteti Mövlana Ədəbi-Fəlsəfi Araşdırma Mərkəzində (MƏFAM) İranın görkəmli şairi, yazıçısı, uzun illər Nəbati irsinin araşdırmaçısı olan Xosrov Sərtipi ilə görüş keçirildi.

Tədbirdə Xosrov Sərtipi dahi şair və mütəfəkkir Əbülqasim Nəbati yaradıcılığının Azərbaycan ədəbiyyatındakı yüksək mövqeyindən danışdı. Ədibin əsərlərində eşq mövzusunun ülviliyini vurğuladı. Gənc və gələcək nəsilləri Nəbati yaradıcılığı ilə tanış etməyin əhəmiyyətindən söz açdı.

Sonra Xosrov Sərtipi musiqi müşayiəti ilə Nəbati irsindən gözəl şeir nümunələri səsləndirdi.

Tədbirdə Xosrov Sərtipi ilə qısa müsahibə də lentə alındı.

On January 14, 2020, the meeting with Khosrov Sartipi, a prominent Iranian poet, writer and years-long scholar of the Nabati legacy, was held at Khazar University's Mawlana Literary-Philosophical Research Center.

Dring the event, Khosrov Sartipi spoke about the great role of the genius poet and thinker Abulqasim Nabati's oeuvre in Azerbaijani literature. He emphasized the virtue of love theme in the works of the writer. He spoke about the importance of acquainting Nabati's creativity for young and future generations.

Further on, Khosrov Sartipi performed beautiful poems from the Nabati legacy accompanied by music.

A short interview with Khosrov Sartipi was also filmed at the event.







# MƏFAM-IN TƏŞƏBBÜSÜ İLƏ XOSROV SƏRTİPİNİN TƏQDİMATINDA "NƏBATİ YARADICILIĞINDA EŞQ" ADLI TƏDBİR





Yanvarın 15-də Xəzər Universitetinin Mərmər salonunda Mövlana Ədəbi-Fəlsəfi Araşdırma Mərkəzinin (MƏFAM) təşəbbüsü və şair, yazıçı, uzun illər Nəbati irsinin tədqiqatçısı Xosrov Sərtipinin təqdimatı ilə "Nəbati yaradıcılığında eşq" mövzusunda tədbir keçirildi.

Tədbirdə Xəzər Universitetinin rəhbərliyi və əməkdaşları, tələbələr, ölkənin tanınmış elm və sənət nümayəndələri, qonaqlar iştirak edirdilər.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı tədbiri açaraq, Azərbaycan ədəbiyyatında Nəbatinin xüsusi yeri olduğunu vurğuladı. Ədibin şeirlərindən bir neçə nümunə səsləndirərək, Nəbati irsinin tədqiqatında Xosrov Sərtipinin böyük rolundan söz açdı və sözü qonağa verdi.

30 ildən çox bir müddətdə Nəbati irsinin tədqiqatçısı olan Xosrov Sərtipi Əbülqasim Nəbatinin qəzəli ilə nitqinə başlayaraq, tədbirin iştirakçılarını salamladı.

*(Ardı səh.20-də)*





# "LOVE IN NABATI'S OEUVRE" PRESENTED BY KHOSROV SARTIPI AND INITIATED BY MAFAM

On January 15, the event entitled "Love in Nabati's Oeuvre" presented by Khosrov Sartipi, a poet, writer, and years-long scholar of Nabati's legacy, was held at Khazar University's Marble Hall, upon the initiative of Mawlana Literary-Philosophical Research Center (MAFAM).

The event was attended by the Khazar University Leadership and staff, students, prominent representatives of science and art of the country, and guests.

Professor Hamlet Isakhanli, the Founder of Khazar University, Chairman of its Board of Directors and Trustees, opened the event and emphasized the special place of Nabati in Azerbaijani literature. After reciting a few verses from the poet's poems, he spoke about the great role of Khosrov Sartipi in the study of the Nabati's legacy and gave the floor to the guest.

Khosrov Sartipi, 30 years-long scholar of Nabati's legacy, began his speech with the Abulqasim Nabati's ghazal and greeted the participants. In his lecture on Nabati, a prominent representative of the nineteenth-century Azerbaijani literature, Khosrov Sartipi elaborated on the extensive glorification of the love theme in Nabati's creativity, reciting examples from his poems, in the form of both the classical and ashig poems.

*(To be continued page 20)*








XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Nəbati haqqında mühazirəsində Xosrov Sərtipi sənətkarın həm klassik, həm də aşıq şeiri şəklində olan əsərlərindən nümunələr səsləndirərək, yaradıcılığında eşq mövzusunun irfani tərənnümündən söz açdı. Çıxışını Nəbatiyə yazdığı şeiri ilə tamamladı.

Tədbirdə şairlər Vahid Çəmənli və İlham Qəhrəman Nəbatiyə həsr etdikləri şeirlərini oxudular. Əməkdar incəsənət xadimi Aqil Məlikov musiqi müşayiəti ilə Nəbatidən bir neçə qəzəl söylədi. Müslüm Maqomayev adına Dövlət Akademik Filarmoniyasının solisti, Xəzər Universitetinin müəllimi Məhsəti Cabbarova və aşıq Ramin Qarayev Nəbatinin şeirləri ilə aşıq havalarını, Xalq artisti Alim Qasımov Nəbatinin qəzəli ilə muğam nümunəsi səsləndirdi.

İranın görkəmli sənətkarı Vədud Müəzzinzadə, Tohid Novruzi, Mehdi Cənnəti Fərd və azərbaycanlı sənətçilər Elya Dəniz və Məhta Behnamın iştirakı ilə də konsert proqramı təqdim olundu.

He finished his speech with a poem written for Nabati.

At the event, the poets recited poems they dedicated to Vahid Chamanli and Ilham Gahraman Nabati. Honored Art Worker Agil Malikov recited several ghazals from Nabati, being accompanied by music. Mahsati Jabbarova, the soloist of the State Academic Philharmonic named after Muslim Magomayev, Khazar University teacher and ashig Ramin Garayev, performed songs from Nabati's poems. People's Artist Alim Gasimov performed an example of mugham over the Nabati's ghazal.

The concert program was also presented by participation of the prominent Iranian artist Vadud Muazinzadeh, Tohid Novruzi, Mehdi Jannat Fard and Azerbaijani artists Elya Deniz and Mahta Behnam.



















# XƏZƏR UNİVERSİTETİNİN MÜƏLLİMLƏRİ TİI SEMİNARINDA

# KHAZAR UNIVERSITY STAFF MEMBERS PARTICIPATED IN RII SEMINAR

Yanvarın 15-də Xəzər Universitetinin müəllimləri Səidə Şərifova, Aytac Misgərli və Asəf Ömərov "Azərbaycanın ali təhsil sistemində tədqiqat, ixtira və innovasiyaların (TİI) gücləndirilməsi" layihəsi çərçivəsində keçirilmiş seminarda iştirak etdilər.

Seminar Avropa İttifaqının maliyyə dəstəyi ilə Azərbaycan Respublikasının Təhsil İnstitutu tərəfindən həyata keçirilirdi. Seminarda tədqiqat, ixtira və innovasiyaların strategiyası, məqalələrin nəşr olunması, həmçinin, elmi jurnalların açıq (yaşıl), qızıl və hybrid girişlərinin xüsusiyyətləri, onların üstün və çatışmayan cəhətləri haqqında məlumat verildi.

On January 15, 2020, Khazar University teachers Saida Sharifova, Aytac Misgarli, and Asaf Omarov participated in a seminar elaborated within the project on "The Strengthening Research, Invention and Innovation (RII) in the Higher Education System of Azerbaijan". The seminar was organized by the Institute of Education of the Republic of Azerbaijan with the financial support of the European Union. At the seminar, the information on the strategies for research, inventions and innovations, publication of articles, as well as features of open (green), gold and hybrid introductions in the scientific journals, their advantages and disadvantages, were provided.





# "DÜNYA"NIN ŞAGİRDLƏRİ XƏZƏR UNİVERSİTETİNDƏ

# "DUNYA" STUDENTS VISITED KHAZAR UNIVERSITY

Yanvarın 15-də Xəzər Universiteti "Dünya" məktəbinin direktoru, direktor müavini və 33 nəfər 11-ci sinif şagirdi öz müəllimləri ilə bərabər tanışlıq məqsədilə Xəzər Universitetində oldular.

Tədbiri universitetin İctimai əlaqələr və media üzrə direktoru Ələvsət Əmirbəyli açdı və sözü Xəzər Universitetinin Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıya verdi. Hamlet İsaxanlı şagirdlərə Xəzər Universitetinin təhsil modelini açıqladı, onun Avropa və Amerikanın qabaqcıl universitetləri ilə müqayisəsini apardı və ixtisas seçimi ilə əlaqədar şagirdlərə öz tövsiyələrini verdi.

Universitetin İnkişaf mərkəzinin direktoru Raziyə İsayeva Xəzər Universitetinin tələbələrə yaratdığı imkanlar, professor Fuat Rəsulov universitetin ölkədə və xaricdə uğur qazanmış məzunları haqqında qısa məlumat verdilər. Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı Dr. Hassan Niknafs öz təcrübəsinə əsaslanaraq, magistratura və doktorantura pillələrində Avropa və ya Amerikanın qabaqcıl universitetlərində təhsil almağın üstünlüyünü vurğuladı.

Yekunda şagirdlər iki qrupa bölünərək, universitetin laboratoriyaları ilə tanış oldular və onlara Xəzər Universitetinin bukletləri hədiyyə edildi.

On January 15, 2020, "Dunya" School Director, Deputy Director and 33 students from the 11th grade visited Khazar University together with their teachers as an acquaintance tour. The event was opened by Alovsat Amirbeyli, Director for Public Relations and Media, who gave the stage to Professor Hamlet Isakhanli, the Founder of the University and Chairman of its Board of Directors. Professor Hamlet Isakhanli introduced the Khazar University education model to the guests, brought up the comparison with the leading universities in Europe and America, and shared his recommendations concerning the choice of majors.

Following that Razia Isayeva, Development Director, briefed the students about the opportunities created by Khazar University, and Professor Fuat Rasulov gave information about University's alumni gained success in the country and abroad. Then, Dr. Hassan Niknafs, the Dean of the School of Science and Engineering, based on his own experience, emphasized the benefits of obtaining master's degree and PhD in leading European or American universities.

In the end, the students were divided into two groups and got acquainted with the university's laboratories and were presented with booklets from Khazar University.

# CBELT LAYİHƏSİNİN AÇILIŞ MƏRASİMİ

# OPENING CEREMONY OF CBELT PROJECT

Yanvarın 16-da Xəzər Universitetinin Mərmər salonunda CBELT (İngilis Dili Müəllimlərinin Bacarıqlarının Gücləndirilməsi) layihəsinin Bakı və Sumqayıt şəhərlərinin məcburi köçkün məktəblərindən 200 müəllim üçün açılış mərasimi keçirildi.

Xəzər Universitetinin İnkişaf mərkəzinin direktoru Raziyə İsayeva tədbiri açaraq, Amerika səfirliyi tərəfindən dəstəklənən, 200 müəllim və 12000-dən çox məcburi köçkün tələbəsinə ingilis dili bacarıqlarını artırmaqda kömək etmək üçün nəzərdə tutulan CBELT layihəsi haqqında geniş məlumat verdi.

Universitetin rektoru dosent İradə Xəlilova, universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, ABŞ-ın Azərbaycandakı səfirliyinin Mədəni işlər üzrə mütəxəssisi Riçard Pinkham, İngilis dili və ədəbiyyatı fepartamentinin müdiri Dr. Bahman Amani təbrik nitqləri söylədilər

Çıxışlardan sonra Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin əməkdaşlarından on nəfər təcrübəli və əvvəllər təlim görmüş müəllimin məcburi köçkün məktəblərindən olan müəllimlər üçün təlim keçirəcəkləri qeyd edildi.

Təlim sessiyaları üç əsas moduldan ibarətdir: Modul 1: Dil öyrənilməsi və tədrisinin əsası; Modul 2: Dərsin planlaşdırılması və dil tədrisi üçün mənbələrdən istifadə; Modul 3: Tədris və təlim prosesinin idarə olunması. Bu sessiyaların əsas məqsədlərindən biri də məktəblərdəki ingilis dili müəllimlərinin peşəkarlığını inkişaf etdirmək, tədris bacarıqlarını artırmaq üçün onlara yeni strategiyalar, metodlar və fəaliyyətlərin öyrədilməsidir.

Mərasimin sonunda məcburi köçkün məktəblərindən gələn müəllimlər təlimlərə başlamaq məqsədilə qruplara bölünmək üçün test sınağından keçdilər. Təlim dərsləri üç ay ərzində həftədə iki dəfə planlaşdırılmış vaxtda keçiriləcəkdir. Proqramı başa vurduqdan sonra iştirakçılara sertifikat veriləcəkdir.

On January 16th, Khazar University held an opening ceremony of the CBELT project (Capacity Building of English Language Teachers) at Marble Hall, for 200 teachers from IDP schools of Baku and Sumqait. Raziya Isayeva, Development Director at Khazar University, opened the ceremony with welcoming speech and delivered the presentation about main aspects and purposes of the CBELT project, supported by American Embassy to help 200 teachers and more than 12000 IDP students to improve their English Language skills competence. Associate Professor Irada Khalilova, the Rector of the University, Professor Hamlet Isakhanli, the Founder of the University, Chairman of its Board of Directors and Trustees, Mr. Richard Pinkham, Cultural Affairs Officer of the U.S. Embassy to Azerbaijan, Dr. Bahman Amani, Head of English Language and Literature Department, also made their greeting speeches. Following the speeches, it was mentioned that ten experienced and previously trained instructors from the staff of English Language and Literature Department of Khazar University are going to hold training sessions for teachers from IDP schools. The training sessions consist of three core modules: Module 1 (Background to language learning and teaching) Module 2 (Lesson planning and use of resources for language teaching) Module 3 (Managing the teaching and learning process). Among main outcomes of these sessions are how English teachers at schools are able to develop professionally as experienced English language instructors, learn new strategies, methods and activities to improve English teaching skills. At the end of the ceremony invited teachers from IDP schools passed their diagnostic tests to be divided into groups to start their training sessions from next week. Training classes will be held twice a week at a scheduled time within three months. After completing the program, they will be awarded a certificate.













# TÜRKİYƏ SƏFİRLİYİNİN TƏHSİL ÜZRƏ MÜŞAVİRİ XƏZƏR UNİVERSİTETİNDƏ

# TURKISH EMBASSY EDUCATION ADVISOR VISITED KHAZAR UNIVERSITY

Yanvarın 16-da Türkiyə Cümhuriyyətinin Bakıdakı səfirliyinin Təhsil üzrə müşaviri Dr.Nihat Büyükbaş Xəzər Universitetində oldu. O, universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə görüşdü.

H.İsaxanlı müşavirə Xəzər Universitetinin quruluş tarixi və bu günə kimi universitetin gördüyü işlər haqqında geniş məlumat verdi, qonağa İstanbulda ikinci dəfə nəşr olunmuş "Hazana övgü" kitabını hədiyyə etdi. Nihat Büyükbaş səmimi qəbul üçün H.İsaxanlıya dərin təşəkkürünü bildirdi və onu Bakı Türk Anadolu Liseyinin müəllim və şagird kollektivi ilə görüşə dəvət etdi.

On January 16, 2020, Dr. Nihat yükbaş, Education Advisor at the Embassy of the Republic of Turkey in Baku visited Khazar University. He met with Professor Hamlet Isakhanli, the Founder of the University and Chairman of its Board of Directors and Trustees. H.Isakhanli provided extensive information on foundation history of Khazar University and University's up to date activities. H. Isakhanli presented to the guest the "Praise to Autumn", second edition of the book published in Istanbul. Nihat Büyükbaş expressed his gratitude to Hamlet Isakhanli for the cordial welcome and invited him to meet with the teaching staff and students of Baku Turk Anadolu High School.




# XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI "MEDIATS" LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ GÖRÜŞLƏRDƏ

# KHAZAR UNIVERSITY STAFF MEMBERS TOOK PART IN MEDIATS PROJECT MEETINGS

Xəzər Universitetinin tərəfdaş kimi iştirak etdiyi Avropa Komissiyasının "Erasmus+" proqramının "MEDIATS" layihəsi çərçivəsində İspaniya Krallığının Mursiya şəhərində yerləşən San Antonio adına Katolik Universitetində yanvarın 13-dən 16-dək intensiv təlim və tədris təcrübəsi formatında görüşlər keçirildi.

"MEDİATS" layihəsinin əsas məqsədi universitetləri mediasiya sahəsində aparıcı qüvvələrə çevirmək, Azərbaycan, Gürcüstan və Ukraynada Avropa təcrübəsindən faydalanaraq, münaqişələrin məhkəməyə qədər obyektiv həllini yaxşılaşdırmaqdan ibarətdir.

Təlimdə Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Ceyhun Məmmədov, Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Elmar Mustafayev, Təlim-tədris mərkəzinin direktoru Ülkər Bayramova, Psixologiya departamentinin koordinatoru Mələk Kərimova, Beynəlxalq əlaqələr ofisinin koordinatoru Lamiyə Pənahova, Psixologiya departamentinin müəllimi və doktorantı Nilufər Əlizadə iştirak edirdilər.

Qeyd edildiyi kimi, təlimlər paralel olaraq iki bölmədə aparılırdı. Bir qrup əməkdaş tədris təcrübəsi görüşlərində iştirak etdilər. Təlim-təcrübənin yekununda Dr. Ceyhun Məmmədov beynəlxalq iştirakçı sertifikatı ilə təltif olundu.

Təlimlərin bir hissəsi isə intensiv seminara həsr olunmuşdu. Bir həftə davam edən seminar-məşğələdən sonra iştirakçılar üç ölkə (Niderland Krallığı, Latviya, İspaniya) təcrübəsinin yekunu olaraq imtahan verərək, beynəlxalq diplomlara layiq görüldülər. Xəzər Universitetinin əməkdaşları - Mələk Kərimova, Lamiyə Pənahova və Nilufər Əlizadə digər iştirakçılarla müqayisədə ən yüksək göstəricilər əldə edərək, Beynəlxalq Mediasiya Federasiyası və Niderland Biznes Akademiyasının birgə hazırladığı Beynəlxalq dərəcəli Mediator diplomu aldılar.

Təlimdə iştirak edən digər əməkdaşlar da - Dr. Ceyhun Məmmədov, Dr. Elmar Məmmədov, Ülkər Bayramova imtahanı uğurla tamamlayaraq, Mediasiya üzrə beynəlxalq konsultant diplomu əldə etdilər.

On January 13-16, meetings in the format of the intensive training and teaching practice were held at the Catholic University of San Antonio in the city of Morsia, Spain, within the framework of "MEDIATS" project of the European Commission's Erasmus + program, which is a partner of Khazar University.

The main objective of the "MEDIATS" project is to make universities a driving force in the field of mediation, using European experience in Azerbaijan, Georgia and Ukraine to improve the objective pre-trial resolution of conflicts.

The training was attended by Dr. Jeyhun Mammadov, Dean of School of Economics and Management at Khazar University, Dr. Elmar Mustafayev, Head of the Political Science and Philosophy Department, Ulker Bayramova, Director of Teaching and Learning Centre, Melek Karimova, Coordinator of the Department of Psychology, Lamiya Panahova, Coordinator of the International Affairs Office, Nilufar Alizade, instructor and PhD student at the Department of Psychology.

As it was mentioned, the trainings were conducted simultaneously in two sections. A group of employees participated in educational practice meetings. At the end of the training, Dr. Jeyhun Mammadov was awarded the Certificate of International Participation.

Part of the training was dedicated to an intensive workshop. After a week-long workshop, participants were awarded international diplomas passing the examination finalizing the experience of three countries (the Netherlands, Latvia, Spain). Khazar University employees became the only university to receive the highest scores compared to other participants, with an International Degree Mediator diploma, prepared by the International Mediation Federation and the Netherlands Academy of Business, with three participants (Melik Kerimova, Lamia Panahova, Nilufar Alizade). Other training participants have successfully completed the exam and received an International Mediation Consultant diploma (Dr. Ceyhun Mammadov, Dr. Elmar Mammadov, Ulker Bayramova).



# PROFESSOR HAMLET İSAXANLI İLƏ QEYRİ-RƏSMİ GÖRÜŞ
# SIT-DOWN WITH PROFESSOR HAMLET ISAKHANLI

Yanvarın 16-da Xəzər Universiteti Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Hassan Niknafsın təşəbbüsü ilə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə qeyri-rəsmi görüş təşkil edildi.

Görüşün əsas məqsədi Təbiət elmləri və mühəndislik fakültəsinin keçən tədris ilində ən yaxşı nəticə göstərən əməkdaşlarına təşəkkür elan edilməsi idi. Professor Hamlet İsaxanlı ilə bu görüşün iştirakçıları: Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Hassan Niknafs, Fizika və elektronika departamentinin müdiri Dr. Nuru Səfərov, Riyaziyyat departamentinin müəllimi və tədqiqatçı Lalə Cəfərova, Kimya və kimya mühəndisliyi departamentinin koordinatoru, həmçinin, Nanotexnologiya laboratoriyasının direktoru Dr. Rasul Moradi və Biologiya elmləri departamentinin tədqiqatçısı və müəllimi Cavid Ocaqi idilər.

Seçilən dörd alimin hər birinin müstəsna göstəriciləri və keyfiyyətli tədris, keyfiyyətli tədqiqat işləri və nəşrlər, verilən tapşırıqlara səylə yanaşma, komanda ilə işləmək bacarığı, kömək etməyə daim hazır olmaları, həftəlik cədvələ sadiq qalma və mehriban xarakterə əsaslanan töhfələri təsdiq edilmiş və yüksək qiymətləndirilmişdir.

Professor Hamlet İsaxanlı qeyd etdi ki, Xəzər Universitetində olan üç fakültə arasında Təbiət elmləri və mühəndislik fakültəsi müxtəlif departamentlərdə keyfiyyətli tədqiqat və birgə tədqiqat proqramlarının köməyi ilə nəşrlərin sayını artırmaq üçün ən böyük potensiala malikdir. Bununla yanaşı, H.İsaxanlı Türkiyə, Rusiya və İran kimi ölkələrin, o cümlədən, Qərbi və Şərqi Asiya ölkələrinin universitetləri ilə qarşılıqlı tədqiqat əməkdaşlığının,laboratoriyaların daha da inkişaf etdirilməsi vacibliyini də xüsusi vurğuladı.

On January 16, based on a request by Dr. Hassan Niknafs, the Dean of School of Science and Engineering, an informal meeting was arranged with the Founder, Prof. Hamlet Isakhanli.

The main purpose of the meeting was to acknowledge the best performers of the last academic year among all the faculties at the School of Science and Engineering. The participants in this meeting with Prof. Hamlet Isakhanli were: Dr. Hassan Niknafs, Dean of the School of Science and Engineering; Dr. Nuru Safarov, Chair of the Physics and Electronic Department; Lale Jafarova, Researcher and Lecturer in the Mathematics Department; Dr. Rasoul Moradi, the Coordinator of Chemistry and Chemical Engineering Department as well as the Director of the Nanotechnology laboratory; And Javid Ocaqi, Researcher and Lecturer in the Department of Biological Sciences.

The exceptional performance and contributions of each four chosen scientists based on their quality teaching, quality research work and publications, diligence to the assigned tasks, team-work ability, constant willingness to help, vigilance and commitment to their weekly schedule, and amiable character was acknowledged and appreciated.

Prof. Hamlet Isakhanli mentioned that among the three existing schools at Khazar University, the School of Science and Engineering has the greatest capacity and potential for increasing the number of publications with the help of quality research and joint research programs in between the various departments. Also, Hamlet Isakhanli heavily emphasized mutual research collaboration with the universities of countries such as Turkey, Russia, and Iran, including the West and Eastern Asia, and the need to further develop laboratories.




# XƏZƏR UNİVERSİTETİNDƏ “PYTHON İLƏ MƏLUMAT” SEMİNARLAR SİLSİLƏSİ SONA YETDİ

Xəzər Universitetində bir ay yarım ərzində davam edən “Python ilə məlumat” elmi seminarlar silsiləsi yanvarın 17-də işini yekunlaşdırdı. Seminarlarda Xəzər Universitetinin tələbələri ilə yanaşı, digər universitetlərin tələbələri də iştirak edirdilər.

5-dən çox seminarı buraxmayan və layihələrdə effektiv iştirak edən şəxslərə Xəzər Universiteti adından rəsmi sertifikat təqdim olundu. Sertifikatları iştirakçılara Xəzər Universitetinin Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Dr. Hassan Niknafs təqdim etdi.

Qeyd edək ki, “Python ilə məlumat” elmi seminarlar silsiləsi 2019-cu il noyabrın 29-dan Xəzər Universitetində başlamışdı. Seminarlar hər bazar ertəsi və cümə günləri olmaqla, təxminən 50 saat davam etmişdir. Xəzər Universitetinin məlumat elmi seminarı bütün ölkədən gələn həvəskarlar, müəllim və tələbə heyəti üçün nəzərdə tutulmuşdu.

# SERIES OF SEMINARS “DATA WITH PYTHON” CONCLUDED AT KHAZAR UNIVERSITY

On January 17, 2020, Khazar University has completed a series of scientific seminars “Data with Python” that lasted for one month and a half. Alongside with the students from Khazar University, the seminars were attended by the students from other universities.

Participants who were effectively involved in projects and with no more than 5 absences, were awarded official certificates on behalf of Khazar University. Certificates were given by Dr. Hassan Niknafs, Dean of the School of Science and Engineering, who congratulated them.

It is worth mentioning that the series of scientific seminars on “Data with Python” comenced on November 29, 2019 at Khazar University. The seminars lasted about 50 hours, being held on Mondays and Fridays. Khazar University's Data Science Seminar was envisaged for enthusiasts, teachers and students from all over the country



# "KİTAB GƏZƏR" BİR QRUP ŞAGİRDLƏ XƏZƏR UNİVERSİTETİNİN QONAĞI OLDU

# "KITAB GAZAR" VISITED KHAZAR UNIVERSITY TOGETHER WITH GROUP OF STUDENTS

Yanvarın 17-də bir qrup könüllü gəncin təşəbbüsü ilə həyata keçirilən "Kitab gəzər" layihəsi çərçivəsində layihə rəhbəri Fatma Qurbanova və Bərdə, Ağdam, Tərtər rayonlarından olan 15 şagird tanışlıq məqsədilə Xəzər Universitetində oldular. Tədbiri Tələbələrin universitetə cəlb olunması üzrə işçi qrupun rəhbəri professor Fuat Rəsulov keçirdi.

O, qonaqlara Xəzər Universiteti barəsində videoklip nümayiş etdirdi, universitetin təhsil modelini açıqladı, universitet barəsində ətraflı məlumat verdi və sonra universitetin tələbələrə yaratdığı imkanlarla bağlı fikirlərini bölüşdü. Səmimi şəraitdə keçən görüşdə şagirdlərin ixtisas seçimi ilə əlaqədar çoxsaylı sualları cavablandırıldı. Yekunda qonaqlar universitetin kitabxanası ilə tanış oldular. Onlara Xəzər Universitetinin ümumi və ixtisaslar üzrə bukletləri, bloknotları və qələmləri hədiyyə edildi.

AZƏRTAC tədbir haqqında xəbər yaymışdır:
*https://azertag.az/xeber/Kitab_gezer_layihesi_cherchivesinde_mektebliler_Xezer_Universitetinde_olublar-1392224*

On January 17, within the framework of "Kitb gazar" (Book seeker), a project initiated by a group of young volunteers, 15 students from Barda, Aghdam, and Tartar districts, led by Fatma Gurbanova, Project Director, visited Khazar University for acquaintance purposes. The event was led by Professor Fuat Rasulov, Head of the Student Engagement Working Group.

He demonstrated to the guests a video clip about Khazar University, explained the University's model of education, provided detailed information about the University, and then shared its ideas with the students about the opportunities created by the University. At the meeting, held in a cordial environment, students' questions related to their choice of profession were addressed. At the end, the guests got acquainted with the library of the University. They were presented with general and specialty booklets, and such courtesies as notebooks and pencils by Khazar University.

AZERTAC spread information on the event:
*https://azertag.az/xeber/Kitab_gezer_layihesi_cherchivesinde_mektebliler_Xezer_Universitetinde_olublar-1392224*





# DİLLƏR VƏ ƏDƏBİYYATLAR DEPARTAMENTİNDƏ SEMİNAR

# SEMINAR AT LANGUAGES AND LITERATURE DEPARTMENT

Yanvarın 17-də Xəzər Universitetində Dillər və ədəbiyyatlar departamentinin təşkil etdiyi "Türk dialektlərində səqir nun varlığı" adlı seminar keçirildi. Məruzəçi fil.ü.f.d. İlahə Qurbanlı idi.

Dillər və ədəbiyyatlar departamentinin müdiri fil.ü.f.d. Dilbər Zeynalovanın giriş sözü ilə mövzu haqqında təqdimatından sonra seminar iştirakçıları məruzəçinin "Türk dialektlərində səqir nun varlığı" adlı mühazirəsini dinlədilər. Məruzəçi türk ədəbi dilləri və dialektləri, habelə, təsnifatda yer alan bəzi məsələlər haqqında danışdı. Sonra İlahə Qurbanlı "səqir nun" səsinin müasir vəziyyəti ilə bağlı geniş məlumat verdi. Bu səsin Türkiyə türkcəsi dialektlərində hazırkı vəziyyətini geniş şəkildə təsvir etdi. Sonda məruzəçi seminar iştirakçılarının mülahizələrini dinlədi, verilən sualları cavablandırdı.

AZƏRTAC tədbir haqqında xəbər yaymışdır:

*https://azertag.az/xeber/Xezer_Universitetinde_seminar_Turk_dialektlerinde_sagir_nun_varligi-1393222*

On January 17, Khazar University hosted a seminar entitled "The Presence of sagir nun in Turkish dialects" organized by the Department of Languages and Literature. The speaker of the seminar was Doctor of Philosophy Ilaha Gurbanli.

Following the introduction speech and presentation of the topic by Dr. Dilbar Zeynalova, the Head of the Department of Languages and Literature, seminar participants listened to the lecture presented by the speaker on "The presence of Sağır nun in Turkish dialects". The speaker talked about Turkish literary languages and dialects, as well as some of the issues in the classification. Further on she gave detailed information on the current state of the "sağır nun" sound. She described in an extensive manner the current state of this sound in Turkish dialects. At the end the speaker listened to the participants' comments and answered their questions.

AZERTAC spread information on the event:

*https://azertag.az/xeber/Xezer_Universitetinde_seminar_Turk_dialektlerinde_sagir_nun_varligi-1393222*



# AYNURƏ MUSAYEVA BOULİS: "ÖZÜN QURDUĞUN İŞ ÜÇÜN ÇALIŞANDA, SAATA DİQQƏT YETİRMİRSƏN"

*2020-ci il yanvarın 8-də kaspi.az saytı Xəzər Universitetinin məzunu, hazırda Pakistanda yaşayıb çalışan Aynurə Musayeva ilə müsahibə dərc etmişdir. Müsahibəni oxucularımıza təqdim edirik.*

*Dəb sahəsinə məktəb illərindən marağı olsa da, valideynlərinin yönəltməsi nəticəsində başqa sahədə təhsil alır. Fərqli sahələrdə bakalavr, magistr, doktorantura təhsili alır, şirkətlərdə çalışır. Ancaq bir müddət sonra öz istədiyi dəb sektoruna yönəlir və bu sahədə öz işini qurur. Müsahibimiz "Patricia Boulis" çanta brendinin yaradıcısı və dizayneri azərbaycanlı xanım Aynurə Musayeva Boulisdir. Bildirək ki, Aynurə xanım hazırda Pakistanda yaşayır. Ailəlidir, bir qızı var. Qeyd edək ki, A.Musayeva Xəzər Universitetində ingilis dili və ədəbiyyatı üzrə bakalavr, biznesin idarə edilməsi üzrə magistr təhsili alıb. Yunanıstanda Saloniki Aleksandr Texnoloji Təhsil İnstitutunda maliyyə üzrə doktorantura, İtaliyanın Bocconi Universitetində isə dəb və lüks şirkətlərin idarə edilməsi üzrə onlayn təhsil alıb.*

**- Dəbə marağınız nə vaxtdan yaranıb? Çünki bakalavr, magistr və doktorantura təhsillərinizin bu sahə ilə bağlılığı yoxdur.**

- Dəbə marağım uzun illərə dayanır. Hətta məktəb illərində moda və dizaynla maraqlanmışam. Sadəcə olaraq Azərbaycanda çox vaxt uşaqların düşüncələri arxa plana atılır. Təhsil alacağın ixtisası seçəndə, öz istəklərinin arxasınca deyil, valideyn yönəldilməsi ilə başqa istiqamətə gedirsən. Buna görə, bir çox tələbələr öz istədikləri sahədə təhsil almırlar. Məndə də bir az elə oldu. Ancaq gec olmadan moda üzrə dəblə bağlı onlayn təhsil aldım. Çünki marağım bu sahəyə idi və onun arxasınca gedirdim. Bilirdim ki, işimlə bağlı bu təhsil mənə lazımdır. Düzdür, işimi bilirdim, lakin mütəxəssis olmaq üçün müəyyən texniki biliklərə də yiyələnməliydim.

**- İşləməyə nə vaxt və hansı sektorda başladınız?**

- İşləməyə hələ bakalavr təhsili aldığım dönəmdə başlamışam. Xəzər Universitetində oxuyurdum, elə orda dekanlıqda yarım ştat işlədim.

**- Tələbə vaxtı işləməyinizin səbəbi nə idi?**

- Düşünürəm ki, 17 yaşına çatan hər bir kəs əgər əmək qabiliyyətlidirsə, savadı yetirsə, yarım gün də olsa, işləməlidir. Bu, həm iş təcrübəsi yığmaq üçün yaxşıdır, həm də ki valideynlərin maliyyə yükü azalır.

**- Magistr təhsili aldığınız dönəmdə də universitetdə çalışdınız?**

- Magistratura təhsilimi də həmin universitetdə almışam, ancaq orda işləmədim. Universitetdə dərslər axşam 7-də başlayırdı. Bu, işləmək üçün gözəl sistem idi. Gündüz işləyirdim, axşam dərsə gedirdim. Magistr təhsilim dönəmində "Mcdermott" neft şirkətində sağlamlıq və təhlükəsizliyin təminatı mütəxəssisi idim. Sonra doktorantura təhsili almaq üçün Yunanıstana getdim.

**- Axşama qədər iş, sonra dərs. Bu, necə rejim idi?**

- Elə də asan rejim deyildi. Magistr təhsili dönəmində semestr imtahanları ilə yanaşı, həm də ara imtahanları olurdu. Ara imtahanlarına hazırlaşmaq üçün vaxt lazım idi. İşlədiyim üçün mənim rejimim heç də rahatlıqla buna imkan vermirdi. İşdən çıxıb 7-də dərsə gedirdim. 9-10-un yarısı evə gəlirdim. Bir az dincəldikdən sonra gecə 3-4-ə qədər imtahanlara hazırlaşırdım. 2-3 saat yatırdım, 7-də durub, hazırlaşıb işə gedirdim. Çünki 8-də işdə olmalıydım. Ara imtahanları ərəfəsində bir ay belə rejimdə olurdum.

**- 2-3 saatlıq yuxu rejimi normal deyil. Bezmirdiniz?**

- Universitet vaxtı idi və bunun müvəqqəti olduğunu düşünürdüm. Anam həmişə məni motivasiya edirdi ki, təhsil dönəmi müvəqqətidir, çətinliyinə dözmək lazımdır və s. Ancaq mənim təhsilim bir az müvəqqəti olmadı (*gülür*). Çünki ondan sonra doktorantura, iki onlayn təhsil aldım. İşi görürdüm, hiss edəndə ki, bunun üçün təhsil almaq, yaxud hansısa sertifikatı əldə etmək lazımdır, onu edirdim. Təhsilim heç vaxt müvəqqəti olmayıb. Daim özümü inkişaf etdirmişəm.

**- Doktorantura təhsilindən sonra otel sektorunda çalışmısınız...**

- Mən doktorantura təhsilimi başa vurduğum dönəmdə Azərbaycanda otel sektorunda inkişaf başlandı. Ona görə o sektordakı işlərlə maraqlandım.. "Jumeirah Group" və "Autograph Collection" kimi otellərdə 6 ilə yaxın təlim və keyfiyyət meneceri işləmişəm. Doktorantura təhsilim maliyyə üzrə idi. Orda aldığım bilikləri otel sektorundakı işdə daha da təkmilləşdirirdim. Öyrəndiklərimi işimdə tətbiq edirdim.

**- İş həyatınızda təhsil aldığınız sahələrin olmamasının səbəbi nə idi?**

- Mən magistr təhsili aldığım dönəmdə elə işdə çalışmaq istəyirdim ki, təhsil haqqımı qarşılayacaq maaşı olsun. Maaşı yaxşı olan da neft şirkəti idi. Ona görə orda işlədim. Təhsil haqqımı ödəmək üçün fərqli yerlərdə çalışmalı olurdum. Mən magistraturanı biznes idarəetməsi ilə bağlı oxumuşam. Magistr dövründə o sahəylə bağlı hansı şirkətdə işləsəydim, 200 manat maaş təklif edilən işlər olacaqdı. Bununla mən təhsil haqqını ödəyə bilməzdim. Ona görə seçimi sahəmə görə deyil, yaxşı maaş verilməsinə görə edirdim.

**- Bəs öz işinizi qurmaq qərarı verməyiniz necə oldu?**

- Otel sektorunda çalışdığım dönəmdə ailə qurdum və yoldaşımın işindən dolayı Pakistana köçməli olduq. Düzdür, dəblə bağlı təhsilimi daha tez alsaydım, elə karyerama da bu sektorla başlayardım. Ancaq demək ki, qismət bu zamanlaraymış. Mən hazırda, bildiyiniz kimi, Pakistanda  yaşayıram. Burda dəri məmulatları zavodlarının sayı çoxdur. İstehsal etdikləri məhsullar bir çox ölkələrə ixrac olunur. Dünya standartlarına cavab verən iş görən zavodların sayı çoxdur. Ona görə qərar verdim ki, burda belə bir şirkət qurum.

**- Pakistanda şirkət qurmaq üçün çox maliyyə lazım oldu?**

- Həddindən artıq böyük büdcə tələb etmədi. Çünki burda iş qurmaq istəyən insanlara yaxşı imkanlar verirlər. Xarici vətəndaş olmağım da heç bir problem yaratmadı.

**- Bəzən gənclər deyirlər ki, işçi olmaqdan bezdim. Öz işimi qursaydım, rahatlanardım. Öz işini qurandan sonra sizin üçün nə dəyişdi? Rahatlanmaq kimi dönəm olubmu?**

- Gözəl nöqteyi-nəzər olsa da, mən bununla razılaşmıram (*gülür*). Çünki öz işini quranda, üzərinə daha çox məsuliyyət götürürsən. Bir çox sahədən müəyyən qədər məlumatlı olmalısan ki, işi idarə edə biləsən. Şirkətdə işləyəndə, saat 6-da çıxırsan, amma öz işində o imkanın olmur. Özün qurduğun iş üçün çalışanda, saata diqqət yetirmirsən. İş varsa, işləyirsiniz. Şənbə-bazar günləri də işləmək ehtimalı var. İlkin dövrlərdə rahatlıq məsələsini unudun. Ancaq böyük bir komanda şəklinə gəldikdən sonra müəyyən qədər rahatlıq olar.



**- Neçə fərqli dizaynda məhsulunuz satışdadır?**

- Bununla bağlı çox suallar verilir, niyə az olduğunu soruşurlar. Ancaq deyim ki, bir çanta modelinin ortaya çıxması üçün xeyli vaxt lazımdır. İl yarımdır mən bu işi qurmuşam. Yeni şirkətik, bunu da nəzərə almaq lazımdır. Hər bir model də çox vaxt apardığı üçün hazırda cəmi 3 modelimiz satışdadır. Başqa brendləri nüsxələməklə işləsəm, model sayı daha çox olardı. Ancaq mən bu cür işləmirəm. Özümə məxsus dizaynla işlər ortaya qoymağın tərəfdarıyam. Bu isə vaxt tələb edir.

**- Pakistanda şirkətinizin məhsulları satılan bir mağaza var?**

- Yeni şirkət olduğumuz üçün hələ ki onlayn şəkildə satış edirik. Gələcəkdə mağaza açmaq istəyirik. İlkin mağazamızı Yunanıstanda -Afinada açmaq fikrimiz var. Pakistanda imkan var və işi bu ölkədə qurmuşam. Ancaq hədəf auditoriyamız pakistanlılar deyil. Məhsullar digər ölkələrə ixrac olunur.

**- Niyə?**

- Çünki Pakistanda xanımlar kiçik ölçülü çantalara üstünlük verirlər. Biz isə hazırda əsasən iş qadınları üçün olan modellərin satışını aparırıq. Pakistanda işlərimizlə maraqlananların çoxu burda çalışan, yaşayan əcnəbi vətəndaşlardır. Mən burda "Marriot" otelində məhsullarımızın sərgisini keçirdim. Maraq göstərənlər çox oldu. Onların isə böyük hissəsi əcnəbilər idi. Dizayn etdiyim çanta isə əsasən iş xanımları üçün nəzərdə tutulub, böyükdür. İçində kompüter qoymaq üçün də yer var. Bu çantaların içərisinə nə qədər sənəd, kitab, kompüter qoyulsa da, altı əyilmir. Ancaq onu da deyim ki, birinci dizaynım kiçik ölçülü çanta olmuşdu.

**- Azərbaycana sifariş edə bilərik?**

- Bizim məhsulları bircə Ermənistan vətəndaşları sifariş edə bilməzlər. Qalan bütün dünya ölkələrinə satış aparırıq. Azərbaycandan da həmçinin. Onu da deyim ki, qiymətlərimiz münasibdir. Yeni başladığımız üçün məhsullarımıza münasib qiymətlər qoymuşuq.

**Aygün Asimqızı**

***http://kaspi.az/az/zunun-canta-brendini-yaradan-azerbaycanli-fotolar/***

## *kaspi.az* Published Interview with Khazar University Alumnus

On January 8, 2020, *kaspi.az* published an interview and photos entitled "An Azerbaijani that created her own bag brand" with Aynura Musayeva, Khazar University Alumnus, currently living in Pakistan. The interview can be read at this link:

***http://kaspi.az/az/zunun-canta-brendini-yaradan-azerbaycanli-fotolar/***




# AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİNƏ DƏSTƏK GÖSTƏRİLMƏSİ LAYİHƏSİNİN PİLOT QİYMƏTLƏNDİRİLMƏSİ

# PILOT EVALUATION OF SUPPORT PROJECT TO THE MINISTRY OF EDUCATION OF THE REPUBLIC OF AZERBAIJAN

Yanvarın 17-də "Ali təhsil sisteminin Avropa Ali Təhsil Məkanının tələblərinə daha da uyğunlaşdırılması məqsədilə Azərbaycan Respublikasının Təhsil Nazirliyinə dəstək göstərilməsi (AZ-ad-EHEA)" layihəsi adı altında həyata keçirilən Tvinninq layihəsi təhsil proqramının xarici və yerli ekspertlərdən ibarət qiymətləndirmə qrupu **İngilis Dili Müəllimliyi Proqramının** pilot qiymətləndirməsini həyata keçirmək üçün Xəzər Universitetində oldu. Ekspertlər universitet rəhbərliyi, özünütəhlil qrupunun üzvləri, ingilis dili və ədəbiyyatı departamentinin müəllimləri, adı çəkilən ixtisasın tələbələri, məzunları və işəgötürən təşkilatların rəhbərləri ilə görüş keçirdilər.

Xəzər Universitetinin layihəyə 2019-cu ilin martında qoşulmasına baxmayaraq, təqdim etdiyi hesabat bundan əvvəl təqdim olunmuş 23 hesabat arasında yüksək qiymətləndirildi.

Hesabat İngilis dili və ədəbiyyatı departamentinin müdiri Dr. Bahman Amaninin başçılığı ilə yaradılmış İşçi qrupunun koordinatoru Milana Abbasova və qrupun üzvləri - Kamalə Əsgərova, Nailə Qasımova, Validə Kərimova, İlham Tağıyev və Cəmilə Fərman tərəfindən hazırlanmışdı.

On January 17, External and Local Expert Assessment group of the Twinning Project Education Program, implemented within the project "Support to the Ministry of Education of the Republic of Azerbaijan for Further Adherence of the Higher Education System to the European Higher Education Area" (AZ-ad-EHEA) visited Khazar University to conduct the pilot assessments of the **English Language Teaching Program**. Experts met with University leadership, members of self-analysis team, teachers of the English Language and Literature Department, students of the mentioned specialty, alumni and the leaders of employers' organizations.

Despite the fact that Khazar University joined the project in March 2019, the submitted report was highly appreciated among the 23 previously submitted reports.

The report was elaborated by the Working Group, established by Dr. Bahman Amani, the Head of the English Language and Literature Department, the coordinator of the Working Group is Milana Abbasova, and members of the Group are - Kamala Askerova, Naila Gasimova, Valida Karimova, Ilham Taghiyev and Jamila Farman.





# XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT ETDİLƏR

# KHAZAR UNIVERSITY STAFF VISITED THE ALLEY OF MARTYRS

Yanvarın 20-də - Ümumxalq Hüzn günündə Xəzər Universitetinin əməkdaşları Şəhidlər Xiyabanında Azərbaycanın azadlığı uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş 1990-cı ilin 20 Yanvar və Qarabağ müharibəsi şəhidlərinin xatirəsini yad etdilər.

On January 20, on the occasion of the Day of Nationawide Sorrow, Khazar University staff members commemorated the martyrs of January 20, 1990, and the Karabakh War, who are included forever in the heroic pages of the history of the struggle for freedom in Azerbaijan.



## "WİLEY" NƏŞRİYYAT EVİNİN NÜMAYƏNDƏSİ KİM-DƏ

## "WILEY" PUBLISHING HOUSE REPRESENTATIVE VISITED LIC

Yanvarın 21-də "Wiley" nəşriyyat evinin MDB ölkələri üzrə nümayəndəsi Sergey Paramonov Xəzər Universitetinin Kitabxana-İnformasiya Mərkəzində (KİM) oldu. Qonaq "Wiley" Online Library haqqında geniş məlumat verdi və gələcəkdə əməkdaşlığın davam etməsini arzu etdi.

Danışıqlar əsasında cari ilin fevralından Xəzər Universitetinin tələbə və akademik heyəti üçün "Wiley" Online Library resurslarından istifadəyə sınaq müddəti verilməsi qərara alındı.

On January 21, Sergey Paramonov, Representative of "Wiley" Publishing House for CIS region, visited Khazar University Library and Information Center. The guest provided extensive information about "Wiley" Online Library and expressed his wish to continue further cooperation. Based on the discussions, it was decided to extend the trial period for the usage of "Wiley" Online Library resources for Khazar University students and academic staff from February this year.

## "DÜNYA" JURNALININ YENİ NÖMRƏSİ ÇAPDAN ÇIXIB

Xəzər Universiteti "Dünya" məktəbinin nəşri olan "Dünya" jurnalının yeni nömrəsi (noyabr-dekabr 2019-cu il, 33 - cü nömrə) Xəzər Universitetinin mətbəəsində çapdan çıxmışdır.

## NEW ISSUE OF "DUNYA" JOURNAL PUBLISHED

New issue of "Dunya" Journal (November-December 2019, number 33), being published by Khazar University "Dunya" School, has been published at Khazar University Press.







# BİTKİLƏRİN MÜASİR BİOTEXNOLOGİYA İLƏ SELEKSİYASINA HƏSR OLUNMUŞ SEMİNAR

# SEMINAR ON PLANT SELECTION WITH MODERN BIO TECHNOLOGY

Yanvarın 21-də Xəzər Universitetinin Həyat elmləri departamentinin təşəbbüsü ilə "Bitkilərdə klassik və yeni nəsil sekvnator vasitəsilə genlərin xəritələşdirilməsi (Using classical and next generation sequencing based DNA markers for mapping genes in plants)" adlı elmi seminar keçirildi. Seminar Türkiyənin Bursa Uludağ Universitetinin Aqronomluq fakültəsinin alimləri - professor Ahmet İpek və Dr. Sevin Teoman Duran tərəfindən aparıldı.

Seminarda Xəzər Universitetinin Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, universitetin rektoru dosent İradə Xəlilova, Azərbaycanda fəaliyyət göstərən "Razi Rice" şirkətinin təsisçisi və rəhbəri Fərid Axundov, həmin şirkətin cənub bölgəsi üzrə koordinatoru Rüfət Əskərov, Azərbaycanın müxtəlif təhsil və elm mərkəzlərindən –Xəzər Universiteti, Azərbaycan Baytarlıq Elmi Tədqiqat İnstitutu, AMEA Genetik Ehtiyatlar İnstitutu, Bakı Dövlət Universiteti, AMEA Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu, Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu və Qərbi Kaspi Universitetindən dəvət olunmuş alimlər, mütəxəssislər və tələbələr iştirak edirdilər.

Tədbir ümumilikdə interaktiv keçərək, iştirakçılar tərəfindən yüksək qiymətləndirildi. Tədbirin sonunda Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova professor Ahmet İpek ilə gələcək əməkdaşlıq perspektivlərini müzakirə etməklə, özəl sektor ilə dövlət sektorunun birgə layihə planları haqqında fikir mübadiləsi apardılar.

Sonda dəvət edilmiş qonaqlara sertifikat və hədiyyələr təqdim olundu.

On January 21, 2020, a Scientific Seminar on "Using classical and next generation sequencing based DNA markers for mapping genes in plants)" was held at Khazar Uniersity upon the initiative of the Life Sciences Department. The seminar was delivered by the scholars from the Faculty of Agronomy of Bursa Uludag University in Turkey: Professor Ahmet Ipek and Dr. Sevin Teoman Duran. The seminar was attended by the scientists from various education and scientific centers of Azerbaijan – Khazar University, Azerbaijan Veterinary Research Institute, Institute of Genetic Resources of ANAS, Baku State University, Institute of Molecular Biology and Biotechnology of ANAS, Vegetable Research Institute, Western Caspian University. Moreover, Professor Hamlet Isakhanli, the Founder of the University, Chairman of its Board of Directors and Trustees, Associate Professor Irada Khalilova, the Rector of the University, Mr. Farid Akhundov, Founder and Head of "Razi Rice" Company operating in Azerbaijan, and Mr. Rufat Askerov, Coordinator of this Company for the Southern region, also took part in the seminar. The event was generally interactive and highly appreciated by the participants. At the end of the event, Rector of Khazar University, Associate Professor Irada Khalilova exchanged views on joint project plans between the private sector and the public sector, discussing future prospects with Professor Ahmet Ipek. Then the invited guests were given certificates and gifts.















"XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU




## BOLQARISTANDA CƏLİL MƏMMƏDQULUZADƏNİN "SEÇİLMİŞ ƏSƏRLƏRİ" ÇAP OLUNUB

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəylinin ideya müəllifliyi və ön sözü ilə Bolqarıstanda Cəlil Məmmədquluzadənin "Seçilmiş əsərləri" nəşr edilib. Akademik İsa Həbibbəylinin "Cəlil Məmmədquluzadə və Azərbaycan ədəbiyyatının "Molla Nəsrəddin" dövrü" adlı ön sözündə böyük demokrat yazıçının həyatı və yaradıcılığından, mollanəsrəddinçi müasirlərinin xidmətlərindən geniş bəhs olunur. Sofiyada çap olunmuş Cəlil Məmmədquluzadənin "Seçilmiş əsərləri"nin Bolqarıstan Milli Kitabxanasında akademik İsa Həbibbəylinin iştirakı ilə geniş təqdimatı və müzakirəsi keçirilib.

İlk dəfə bolqar dilində kitab halında çap olunan Cəlil Məmmədquluzadənin "Seçilmiş əsərləri"nin məsul redaktoru Bolqarıstan Elmlər Akademiyası Ədəbiyyat İnstitutunun direktoru, professor Elka Traykovadır. Tərcümənin redaktoru Sofiya Dövlət Universitetinin Azərbaycanşünaslıq Mərkəzinin direktoru Sofiya Şiqayeva Mitreskadır.

Əsərləri Azərbaycan dilindən bolqar dilinə Sofiya Şiqayeva Mitreska ("Poçt qutusu" və "Molla Fəzləli"), Sofiya Dövlət Universitetinin Türkologiya ixtisası üzrə təhsil alan tələbələri Aysun Yumer ("Kişmiş oyunu"), Alper Emurlov ("Usta Zeynal"), Çiydem Aliosmanova ("Saqqallı uşaq" və "Dəllək"), Liliya Yordanova ("Nigarançılıq"), Janet Nikolova ("Bəlkə də qaytardılar") tərcümə ediblər. Bolqarıstan Elmlər Akademiyası Ədəbiyyat İnstitutunun "Boyan Penev" nəşriyyatında işıq üzü görən kitabın korrektoru Emiliya Aleksiyeva, dizayner və naşiri isə Katerina Blkovadır.

Qeyd edək ki, indiyə qədər akademik İsa Həbibbəylinin ideya müəllifliyi ilə Cəlil Məmmədquluzadə irsinin dünyada tanıdılması istiqamətində onun əsərləri Rusiyada (1999), Pakistanda (2004), Misirdə (2007), Ukraynada (2010), Macarıstanda (2011), Gürcüstanda (2016), Litvada (2017), Özbəkistanda (2018), Tacikistanda (2019) və Bolqarıstanda (2019) işıq üzü görüb.

# AZƏRBAYCAN-RUSİYA ELMİ ƏLAQƏLƏRİNDƏ YENİ ADDIMLAR



Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli Rusiya Elmlər Akademiyası Maksim Qorki adına Ədəbiyyat İnstitutunun direktoru, REA-nın müxbir üzvü Vadim Polonskinin rəsmi dəvəti ilə həmin institutun elmi şurasında «Azərbaycan-Rusiya ədəbi əlaqələri: ənənələr, reallıqlar və perspektivlər» mövzusunda elmi məruzə ilə çıxış edib.

Məruzədə Azərbaycan-Rusiya ədəbi əlaqələrinin inkişaf mərhələləri və əsas istiqamətlərindən, əldə edilmiş mühüm elmi nəticələrdən və qarşıda duran vəzifələrdən bəhs olunub.

Maksim Qorki adına Ədəbiyyat İnstitutunun direktoru, REA-nın müxbir üzvü Vadim Polonskinin giriş sözündə akademik İsa Həbibbəylinin çoxcəhətli elmi fəaliyyəti haqqında elmi şura üzvlərinə məlumat verilib.

Məruzə ətrafındakı müzakirələrdə akademik Aleksandr Kudelin, filologiya elmləri doktoru, professor Kazbek Sultanov, filologiya elmləri doktoru, professor Andrey Kofman, Azərbaycan Yazıçılar Birliyi Moskva bölmələrinin rəhbəri, filologiya elmləri doktoru, professor Abuzər Bağırov, filologiya elmləri doktoru, professor Salidə Şərifova, filologiya elmləri namizədi Lyubov Turbina və başqaları çıxış ediblər. Elmi məruzənin Maksim Qorki adına Ədəbiyyat İnstitutunun «Elmi əsərlər» jurnalında çap edilməsi tövsiyə olunub.

Bundan başqa, Maksim Qorki adına Dünya Ədəbiyyatı İnstitutunun rəhbərliyi ilə keçirilmiş görüşdə ikitərəfli əməkdaşlıqla əlaqədar məsələlər nəzərdən keçirilib. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun və Maksim Qorki adına Ədəbiyyat İnstitutunun «Elmi əsərlər» jurnallarının hər iki ölkənin ədəbiyyatlarına həsr edilmiş xüsusi buraxılışının hazırlanıb çap edilməsi qərara alınıb.

Maksim Qorki adına Dünya Ədəbiyyatı İnstitutuna üzərində Milli Elmlər Akademiyasının emblemi həkk olunmuş Azərbaycan xalçası hədiyyə edilib. Qarşılıqlı surətdə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutuna görkəmli rus rəssamı S.Kutuzovun çəkdiyi rəsm əsəri bağışlanıb.

Səfər çərçivəsində akademik İsa Həbibbəyli Rusiya Elmlər Akademiyasının İctimai Elmlər üzrə vitse-prezidenti, akademik Taliyə Xabriyeva ilə də görüşüb.

Görüş zamanı Azərbaycan Milli Elmlər Akademiyası ilə Rusiya Elmlər Akademiyasının 2020-ci ildə Xəzəryanı ölkələrin Elmlər Akademiyaları ilə birlikdə keçirilməsi qərara alınmış «Xəzər dialoqu» beynəlxalq forumunun təşkili ilə əlaqədar məsələlər müzakirə edilib.

Müzakirələrdə Rusiya Elmlər Akademiyası prezidentinin koordinatoru, hüquq elmləri doktoru, professor Rəşad Qarbanov iştirak edib.

**Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,**
**İctimaiyyətlə əlaqələr şöbəsi**



# TƏLƏBƏLƏRİN MƏDƏNİYYƏT FƏNNİNDƏN İMTAHANI

# STUDENTS EXAMINATION ON CULTURE SUBJECT

Yanvarın 22-də Xəzər Universitetinin Mərkəz kampusunda birinci kurs tələbələrinin mədəniyyət fənnindən açıq semestr imtahanı oldu. Tədbirdə universitetin Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Elza Səmədova, Musiqi və incəsənət departamentinin müdiri, Əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqova, Əməkdar incəsənət xadimi, professor, bəstəkar Elnarə Dadaşova, tələbələr və valideynlər iştirak edirdilər.

Departament müdiri Zülfiyyə Sadıqova tədbiri açaraq, imtahan və iştirakçılar haqqında geniş məlumat verdi. Qeyd etdi ki, xor kollektivi, qızlardan ibarət rəqs qrupu, oğlanlardan ibarət rəqs qrupu və vokalçılar imtahan sınağından keçəcəklər.

İmtahan Xəzər Universitetinin himninin səslənməsi ilə başladı. Tələbələr bacarıqlarını nümayiş etdirdilər.

Tədbirdə, həmçinin, bəstəkar Elnarə Dadaşovanın fortepianoda öz müşayiəti ilə romansları Xəzər Universitetinin müəllimi, Müslüm Maqomayev adına Akademik Dövlət Filarmoniyasının solisti Məhsəti Cabbarova və Bakı Musiqi Akademiyasının doktorantı Rüfət Piriyev tərəfindən ifa olundu. Xəzər Universitetinin rəqs ansamblı çıxış etdi.

İmtahandan sonra tələbələrin çıxışları qiymətləndirildi.

On January 22, an open semester exam for the first-year students on the Culture subject was held at Khazar University downtown campus. The event was attended by Elza Samadova, the Dean of the School of Humanities, Education and Social Sciences, Zulfiyya Sadigova, Head of Music and Fine Arts Department, honored teacher, pianist, Elnara Dadashova, Honored Artist, professor, composer, students and parents.

Head of the Department, Zulfiya Sadigova, in her opening statement provided detailed information about exams and participants. She indicated that the choir, the girls 'dance group, the boys' dance group and the vocalists will pass the exam.

The exam began with the singing of the Khazar University anthem. Students demonstrated their skills.

Ding the event, the romances of the composer Elnara Dadashova, accompanied on the piano by herself, were performed by Mahsati Jabbarova, Khazar University teacher, soloist of Academic State Philharmonic named after Muslim Magomayev, and Rufat Piriyev, PhD student of Baku Music Academy. Moreover, Khazar University Dance Ensemble presented a performance.

Students' performances were evaluated after the exam.













# XƏZƏR UNİVERSİTETİNİN ELMİ UĞURLARI VƏ TƏBRİZ UNİVERSİTETİ İLƏ ƏMƏKDAŞLIĞA HƏSR EDİLMİŞ KONFRANS







Yanvarın 28-də Xəzər Universitetinin Mərmər salonunda Xəzər Universitetinin elmi uğurları və Təbriz Universiteti ilə əməkdaşlığa həsr edilmiş konfrans keçirildi.

Konfransda universitetin rəhbərliyi, fakültə dekanları, departament müdirləri və əməkdaşlar, İranın Təbriz universitetindən gəlmiş nümayəndələr iştirak edirdilər.

Konfransda universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxış edərək, son illərdə universitetdə elmi - tədqiqat işlərinin uğurla davam etdirildiyini, nüfuzlu jurnallarda məqalələrin çapının artdığını və bu fəaliyyətin təşəkkürə, təltifə layiq olduğunu söylədi, Təbriz universitetinin nümayəndələrini salamladı.

İngilis dili və ədəbiyyatı departamentinin müdiri Dr. Bahman Amani Təbriz Universitetinin nümayəndələrini - Elektronika və kompüter mühəndisliyi departamentinin əməkdaşları - professor Ebrahim Babai (*http://khazar.org/uploads/news/28_01_2020/Tabriz_professors/Ebrahim_Babaei.pdf*), dosent Seyid Hadi Əqdəsi Ələmdari (*http://khazar.org/uploads/news/28_01_2020/Tabriz_professors/Seyed_Hadi_Aghdasi_Alamdari.pdf*), professor Kazem Zarei (*http://khazar.org/uploads/news/28_01_2020/Tabriz_professors/Kazem_Zare.pdf*) və Təhsil və psixologiya departamentinin dosenti Rasul Heşmatini (*http://khazar.org/uploads/news/28_01_2020/Tabriz_professors/Rasoul_Heshmati.pdf*) iştirakçılara təqdim etdi, onların elmi fəaliyyəti haqqında qısa məlumat verdi. Təbriz universitetindən dəvət edilmiş qonaqlar adından çıxış edən professor Ebrahim Babai Təbriz Universiteti ilə Xəzər Universitetinin əməkdaşlığa başlamasının mühüm hadisə olduğunu və bu əməkdaşlığın səmərəli bəhrələr verəcəyinə əmin olduğunu bildirdi. Professor Ebrahim Babai elmi yaradıcılıqda uğur qazanmanın sirri və yolları ilə bağlı mühazirə oxudu, bunun ətrafında maraqlı müzakirələr aparıldı.

*(Ardı səh.46-da)*







# CONFERENCE DEDICATED TO KHAZAR UNIVERSITY'S SCIENTIFIC SUCCESS AND COLLABORATION WITH TABRIZ UNIVERSITY

On January 28, a Conference dedicated to the scientific success of Khazar University and cooperation with Tabriz University was held at Khazar University Marble Hall.

The Conference was attended by University Leadership, Deans of Schools, Head of the Departments and staff, and representatives from Tabriz University in Iran.

Speaking at the Conference, Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, stated that University has successfully continued its research work in recent years, and thus increased the number of the articles published in prestigious journals, and emphasized that this kind of activities deserve praise and credit, he also cordially welcomed Tabriz University representatives.

Dr. Bahman Amani, Head of the Department of English Language and Literature, introduced the representatives of Tabriz University – from the Department of Electronics and Computer Engineering - Professor Ebrahim Babaei (*http://khazar.org/uploads/news/28_01_2020/Tabriz_professors/Ebrahim_Babaei.pdf*), Associate Professor Seyed Hadi Aghdasi Alamdari (*http://khazar.org/uploads/news/28_01_2020/Tabriz_professors/Seyed_Hadi_Aghdasi_Alamdari.pdf*), ProfessorKazem Zare (*http://khazar.org/uploads/news/28_01_2020/Tabriz_professors/Kazem_Zare.pdf*) and from the Department of Education and Psychology - Associate Professor Rasoul Heshmati (*http://khazar.org/uploads/ news/28_01_2020 /Tabriz_professors/ Rasoul_Heshmati.pdf*), furthermore Dr. Amani provided concise information about their scientific activities. Professor Ebrahim Babaei, delivering speech on behalf of the University representatives stated that the cooperation between Tabriz University and Khazar University is an important event and they are confident that this cooperation will be fruitful. Professor Ebrahim Babaei delivered talk about the secrets and ways to succeed in scientific creativity field and interesting discussions were held around this topic.

*(To be continued page 47)*

















Universitetin İnkişaf mərkəzinin direktoru Raziyə İsayeva universitet haqqında təbrizli qonaqlar üçün nəzərdə tutulan geniş təqdimatla çıxış etdi.

Sonra elmi - tədqiqat sahəsindəki uğurlara görə təltifolunma mərasimi başlandı. Müxtəlif dərəcəli diplom və pul mükafatları departament və tədqiqatçı müəllimlərə professor Hamlet İsaxanlı başda olmaqla universitetin rəhbərliyi və Təbriz universitetindən gəlmiş qonaqlar tərəfindən təqdim olundu.

**Müxtəlif dərəcəli diplomlarla təltif edilən departamentlərin siyahısı:**

<u>Yaxşı tədqiqatçı departament:</u>

1. Həyat Elmləri departamenti
2. Fizika və Elektronika departamenti

<u>Ən yaxşı tədqiqatçı departament</u>

1.Riyaziyyat departamenti

*(Ardı səh.48-də)*







Razia Isayeva, Development Director, made a comprehensive presentation about the University for the guests from Tabriz.

Following that the ceremony of awarding for achievements in the field of scientific research started. Certificates and gifts were presented by the University Leadership, preceded by Professor Hamlet Isakhanli, and faculty deans, department heads and guests from Tabriz.

**List of Departments awarded with various degree diplomas:**

<u>**Notable Research Department:**</u>

1. Department of Life Sceiences;
2. Department of Physics and Electronics.

<u>**Best Research Department:**</u>

1. Department of Mathematics.

*(To be continued page 48)*













**Müxtəlif dərəcəli diplomlarla təltif edilən əməkdaşların siyahısı:**

**Yaxşı tədqiqatçı:**

1. İradə Xəlilova (Həyat elmləri departamenti)
2. Nuru Səfərov (Fizika və Elektronika departamenti)
3. Sevda Qəribova (Fizika və Elektronika departamenti)
4. Fəridə Tatardar (Fizika və Elektronika departamenti)
5. İbrahim Nəbiyev (Riyaziyyat departamenti)
6. Elvin Əzizbəyov (Riyaziyyat departamenti)
7. Rövşən Abbasov (Coğrafiya və ətraf mühit departamenti)
8. Elmira Məmmədova – Kekeç (Dillər və ədəbiyyatlar departamenti)
9. Səidə Şərifova (Həyat elmləri departamenti)

**Çox yaxşı tədqiqatçı**

1. Nazim Kərimov (Riyaziyyat departamenti)
2. Səbinə Sadıqova (Riyaziyyat departamenti)
3. İlmar Qəhrəmanov (Riyaziyyat departamenti)
4. Cavid Ocaqi (Həyat elmləri departamenti)
5. Mehdi Kiyasatfar (Mexanika mühəndisliyi departamenti)

**Ən yaxşı tədqiqatçı**

1. Rasul Moradi (Kimya və kimya mühəndisliyi departamenti)

*(Ardı səh.49-da)*

**List of faculty members awarded with various degree diplomas:**

**Notable Researcher:**

1. Irada Khalilova (Department of Life Sciences);
2. Nuru Safarov (Department of Physics and Electronics);
3. Sevda Garibova (Department of Physics and Electronics);
4. Farida Tatardar (Department of Physics and Electronics);
5. Ibrahim Nabiyev (Department of Mathematics);
6. Elvin Azizbeyov (Department of Mathematics);
7. Rovshan Abbasov (Department of Geography and Environment);
8. Elmira Mammadova-Kekech (Department of Languages and Literature);
9. Saida Sharifova (Department of Life Sciences).

**Distinguished Researcher**

1. Nazim Karimov (Department of Mathematics);
2. Sabinə Sadıgova (Department of Mathematics);
3. Ilmar Gahramanov (Department of Mathematics);
4. Javid Ojaghi (Department of Life Sciences);
5. Mehdi Kiyasatfar (Department of Mechanical Engineering).

**Best Researcher:**

1. Rasoul Moradi (Chemistry and Chemical Engineering).

*(To be continued page 49)*





Tədbirdə universitetin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqovanın rəhbərliyi ilə universitetin Kamera orkestri və Xəzər Universitetinin müəllimi, Müslüm Maqomayev adına Akademik Dövlət Filarmoniyasının solisti Məhsəti Cabbarovanın iştirakı ilə Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət qısa konsert proqramı təqdim edildi.

Tədbir başa çatdıqdan sonra bütün qonaqlar Xəzər Universitetinin Buzovnada yerləşən Konfrans və İstirahət Mərkəzinə dəvət edildilər. Təbriz universitetindən gəlmiş qonaqlar və digər iştirakçılar Konfrans və İstirahət Mərkəzi ilə tanış oldular, qonaqların və elmi uğurlarına görə diplom alanların şərəfinə musiqili ziyafət verildi.

*(Ardı səh.50-də)*

During the event, a short concert program consisting of the works of Azerbaijani composers was organized with the participation of the University Chamber Orchestra and Soloist Mahsati Jabbarova, Khazar University teacher, soloist of the State Academic Philharmonic named after Muslim Magomayev, conducted by Zulfiyya Sadigova, Head of Music and Fine Arts Department, honored teacher, pianist.

At the end of the event, all guests were invited to the Khazar University Conference and Leisure Center in Buzovna. Guests and other participants from Tabriz University were acquainted with the Conference and Leisure Center. A reception was held in honor of the guests and diploma awardees for their academic achievements.

*(To be continued page 50 )*







***

Təbriz Universitetinin nümayəndələri - Ebrahim Babai, Seyid Hadi Əqdəsi Ələmdari, Kazem Zarei və Rasul Heşmati səfər müddətində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə görüşərək, iki universitet arasında əməkdaşlıq məsələlərini müzakirə etmişlər.

Qonaqlar universitetin Mərkəz kampusu ilə tanış olmuş, fakültə, departament əməkdaşları və tələbələrlə görüşlər keçirmiş, "Dünya" məktəbində və Sumqayıt "Dünya" məktəbində olmuş, dizayn ixtisası tələbələrinin işlərindən ibarət sərgiyə baxmışlar. Onlar üçün Bakı şəhərinə ekskursiya təşkil edilmişdir.

***

Tabriz University Representatives - Ebrahim Babaei, Seyed Hadi Aghdasi Alamdari, Kazem Zare and Rasoul Heshmati met with Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, and discussed cooperation between the two universities.

The guests were acquainted with the University's Central campus, held meetings with faculty, department staff and students, visited "Dunya" School and Sumgait "Dunya" School and attended the exhibition of the students' works majoring in design. Moreover, an excursion of Baku city was organized for them.














# KOREYA RESPUBLİKASININ AZƏRBAYCAN RESPUBLİKASINDAKI SƏFİRLİYİNİN MÜŞAVİRİ LEE JAE VUNQUN NDU-DA

Koreya Respublikasının Azərbaycan Respublikasındakı səfirliyinin müşaviri Lee Jae Vunqun Naxçıvan Muxtar Respublikasına rəsmi səfəri çərçivəsində Naxçıvan Dövlət Universitetində olub. Universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru, hüquq üzrə fəlsəfə doktoru, dosent Seymur Talıbov qonağı salamlayaraq, onu universitetdə görməkdən məmnun olduğunu bildirib. Cənubi Koreya mərkəzində olan qonağa məlumat verilib ki, 2012-2013-cü tədris ilindən etibarən Naxçıvan Dövlət Universitetində Koreya dilini öyrədən kurslar açılıb. Vurğulanıb ki, mərkəzin müasir informasiya texnologiyaları, Koreya dilində ensiklopediya, lüğət və digər məlumat nəşrləri ilə təmin olunması diqqət mərkəzində saxlanılır. Mərkəzdə Koreyanın dövlət atributları, milli musiqi alətləri, eyni zamanda ölkənin tarixini, milli mədəniyyətini, ədəbiyyatını, ali təhsil strukturunu əks etdirən elmi-siyasi ədəbiyyatlar, elektron məlumat vasitələri toplanıb. Prorektor diqqətə çatdırıb ki, Koreya Mərkəzində Cənubi Koreyanın əlamətdar tarixi günlərinə həsr olunmuş mərasimlər keçirilir.

İkitərəfli görüşdə qonaq muxtar respublikada Koreya dilinə olan yüksək marağı nəzərə alaraq, bu dil üzrə TOPİC imtahanlarının Bakıya getmədən məhz Naxçıvanda keçirilməsini təklif edib. Prorektor təklifi yüksək qiymətləndirib, Koreya milli mədəniyyətinin təbliği istiqamətində görüləcək işləri məqsədəuyğun hesab edib və Koreya günü keçirilməsi ilə bağlı öz təklifini irəli sürüb. Görüşdə digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.



## TƏLƏBƏLƏRİN ALMANİYADA TƏLİMİ UĞURLA BAŞA ÇATIB

Naxçıvan Dövlət Universiteti Elektroenergetika ixtisasının tələbələrinin Almaniyada təlimi başa çatıb. "Pure Energy Development" SARL şirkətinin Almaniyanın Wismar şəhərindəki fabrikində keçirilən təlimdə universitetdən 7 nəfər tələbə və bir müəllim iştirak edib.

Universitetdə təlim iştirakçıları ilə keçirilən görüşdə ali təhsil ocağının rektoru Elbrus İsayev çıxış edib. Rektor bu cür təlimlərin tələbələrin gələcəkdə əsl peşəkar kadr kimi formalaşmasında rolundan danışıb. Tələbələrə təlimdə yaxşı iştirak etdiklərinə görə təqdim edilən sertifikatların gələcək peşə karyerasında əhəmiyyəti vurğulanıb.

Keçdikləri təlim üzrə çıxış edən tələbələr orada gördüklərinin onlar üçün böyük təcrübə olduğunu qeyd edib, yaradılan şərait, dövlət qayğısına görə minnətdar olduqlarını bildiriblər.

Rektor tələbələrin təlimdə iştirakını universitetə göstərilən yüksək dövlət dəstəyi hesab edib, gənclərə bu qayğını layiqincə qiymətləndirməyi və əsl peşəkar kadr kimi formalaşmağı tövsiyə edib.

## TƏLƏBƏ EVİNDƏ İNTELLEKTUAL OYUN KEÇİRİLİB

Naxçıvan Dövlət Universitetinin Tələbə evində intellektual oyun keçirilib. Yarışdan öncə universitetin rektoru Elbrus İsayev Tələbə evində yeni kitablarla təmin olunmuş oxu zalı ilə tanış olub, müvafiq tapşırıq və tövsiyələr verib.

İntellektual oyundan öncə çıxış edən rektor tələbələrin asudə vaxtlarının səmərəli keçməsi üçün yaradılan şəraitdən, hərtərəfli imkanlardan söhbət açıb. Bildirilib ki, tələbə evində həm qızlar, həm oğlanlar qalan bölmələrin oxu zallarında səyyar kitabxanalar qurulub. Diqqətə çatdırılıb ki, bu kitabxanalar daim yenilənəcək və mütəmadi olaraq yeni kitablarla təmin olunacaq.

Elmi kitabxananın direktoru Fariz Əhmədov tələbə evində qurulan səyyar kitabxanaların əhəmiyyətini qeyd edib. Tələbələrin bu kitablardan düzgün və səmərəli yararlanması ilə əlaqədar tövsiyələrini bildirib.

Sonra intellektual yarışa start verilib. Beş tur və hər turda 5 sual olmaqla ümumilikdə 25 sual təqdim olunub. Hər sualın cavablandırılması üçün 1 dəqiqə vaxt verilib.

Sonda 25 xalla "Alfa" komandası qalib olub. "Günnüt" və "Zəfər" komandaları müvafiq olaraq 23 və 18 xal toplamaqla II və III yerləri bölüşüblər.

Qalib komandaların üzvləri universitetin diplomu ilə təltif olunublar.

**Səadət Əliyeva**
*NDU-nun Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri*





# ÇAY BİTKİSİ ÜZƏRİNDƏ TƏDQİQATLAR APARILIR

# TEA PLANT RESEARCH BEING CONDUCTED

Xəzər Universitetində "Çay bitkisindən ayrılmış nano hissəciklərinin *Prophyromonas gingivalis* bakteriyasına təsirinin öyrənilməsi" layihəsinə start verildi.

Həyat elmləri departamentinin və Nanotexnologiya laboratoriyasının müəllim heyətinin, PhD tələbələrinin elmi-tədqiqat işbirliyi nəticəsində ilk dəfə olaraq çay bitkisindən (*Camellia sinensis*) gümüş nano hissəcikləri yaşıl sintez metodu vasitəsilə ayrılmışdır. Eyni zamanda, ağız boşluğunda diş əti iltihabına, kariyesə səbəb olan və insanlar arasında kifayət qədər ciddi stomatoloji problem yaradan anaerob *Prophyromonas gingivalis* bakteriyası bakterioloji üsullardan istifadə edilərək, xəstələrdən götürülmüşdür.

Eksperimentin əsas məqsədi yaşıl çaydan ekstraksiya edilmiş gümüş nano hissəciklərin müxtəlif konsentrasiyalarında *Prophyromonas gingivalis* bakteriyasına baktriostatik, bakteriosid və digər təsirlərinin *in vitro* şəraitində öyrənilməsidir.

Khazar University has launched a project to study "The Effects of Nano Particles Separated from the Tea Plants on the *Prophyromonas gingivalis* bacteria.

As a result of the joint research work by the faculty members of the Department of Life Sciences and the Nanotechnology Lab, PhD students, for the first time, the silver nano particles of green tea (*Camellia sinensis*) were separated by green synthesis. At the same time, anaerobic *Prophyromonas gingivalis* bacteria, which causes serious problems for gingival inflammation, cavities, and are common in humans, were separated from the patients through the bacteriological methods. The main purpose of the experiment was to study bactriostatic, bacteriocide and other effects on *Prophyromonas gingivalis* bacteria at different concentrations of silver nano particles extracted from the green tea in *in vitro conditions*.

# XƏZƏR UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ KİYEV UNİVERSİTETLƏRİNDƏ

# KHAZAR UNIVERSITY REPRESENTATIVES VISITED KIEV UNIVERSITIES

Yanvarın 27-dən 29-dək "Dayanıqlı inkişaf naminə təbii ehtiyatların idarə edilməsi" magistr proqramının hazırlıq mərhələsi çərçivəsində Avrasiya Bilik Mərkəzinin direktoru İnqilab Əhmədov və Xəzər Universitetinin professoru Fuat Rəsulov Ukraynanın paytaxtına səfər etdilər. Xəzər Universitetinin nümayəndələri Ukraynanın ən öndə gedən tədqiqat mərkəzlərindən biri olan Diksi Qrupun ofisində oldular.

Onlar, həmçinin, Kiyev İqtisadiyyat Məktəbi, Taras Şevçenko adına Kiyev Dövlət Universiteti və Kyiv-Mohyla Akademiya Dövlət Universitetinin rəhbərləri ilə görüşdülər. Adı gedən universitetlərin hər biri Xəzər Universiteti ilə əməkdaşlıqda maraqlı və lazım olan addımları atmağa hazır olduqlarını bildirdilər.

On January 27-29, within the framework of the feasibility study project for the planned master's degree program in "Natural Resources Management for Sustainable Development" at Khazar University, Mr. Ingilab Ahmadov, the Director of the Eurasia Knowledge Hub, and Prof. Fuat Rasulov visited Kiev, Ukraine. Khazar University representatives visited Dixi group office, which is one of the leading policy-oriented think tanks in Ukraine.

Also, they made visits to Kyiv School of Economics (KSE), Taras Shevchenko National University of Kyiv Institute of International Relations, National University of Kyiv-Mohyla Academy (NUKMA) and met with the leadership of these universities. All of the above-mentioned universities expressed their interest in cooperating with Khazar University and readiness to take appropriate actions to start a successful cooperation.




# XƏZƏR UNİVERSİTETİ GİOVANİ NEL MONDO ASSOSİASİYASI İLƏ TƏRƏFDAŞLIĞA BAŞLAYIR

Yanvarın 29-dan Xəzər Universiteti və Giovani nel Mondo Assosiasiyası arasında rəsmi tərəfdaşlığa start verildi. Tərəfdaşlığın ərsəyə gəlməsi Xəzər Universiteti Karyera İnkişaf Mərkəzinin koordinatoru Fəxrəddin Abdullayev və Giovani nel Mondo Assosiasiyasının Beynəlxalq Əlaqələr rəhbəri Maria Luisa Di Fraianın əməyinin nəticəsidir.

Tərəfdaşlığa əsasən Xəzər Universitetinin tələbələrindən ibarət nümayəndə heyəti 2020-ci il martın 7-dən 10-dək Romada keçiriləcək Beynəlxalq Karyera Festivalı-2020-nin layihələrində iştirak edərək, Azərbaycanı təmsil edəcək. Tərəfdaşlığın məqsədi birgə fəaliyyətin təşkili, bu layihədə tələbə iştirakının təmin edilməsi, yaxın gələcəkdə tərəflər arasında qarşılıqlı şəkildə layihə, konfrans, seminar və müzakirələrin keçirilməsində tələbələrin iştirakını təmin etməkdən ibarətdir.

Qeyd edək ki, razılaşma tərəflər arasında əməkdaşlıq münasibətlərini tənzimləməklə tələbələr üçün təşkil ediləcək layihələrdə məlumatlandırma və maarifləndirmə fəaliyyətinin, sosial aktivliyin artırılmasını və gələcək karyera imkanlarının dəyərləndirilməsini əhatə edir.

# KHAZAR UNIVERSITY STARTED PARTNERSHIP WITH GIOVANI NEL MONDO ASSOCIATION

On January 29, Khazar University and Giovani nel Mondo Association launched an official partnership. The partnership is a result of the joint work of Fakhraddin Abdullayev, Khazar University Career Development Coordinator, and Maria Luisa Di Fraia, Head of International Relations at Giovani nel Mondo Association.

According to the partnership, Khazar University students delegation will represent Azerbaijan in the projects of the International Career Festival 2020, which will be held in Rome from 7th March to 10 March, 2020. The purpose of the partnership is to organize joint activities, to provide student participation in this project, and in the near future to facilitate student participation in joint projects, conferences, seminars and discussions between the parties.

It should be noted that the agreement involves the promotion of information and enlightenment activities, social activities and evaluation of future career opportunities in student projects, regulating partnerships between the parties.

# HƏYAT ELMLƏRİ DEPARTAMENTİNİN DAHA BİR LAYİHƏSİ BAŞA ÇATDI

# ANOTHER PROJECT COMPLETED AT LIFE SCIENCES DEPARTMENT

Yanvarın 30-da Xəzər Universitetinin Həyat elmləri departamentində 2019-cu ilin avqustunda başlamış "Xörək duzunun artan konsentrasiyalı süd məhsullarında *E.coli* və *Salmonella spp*-nin yaşama qabiliyyətinin müxtəlif ekspozisiya müddətlərində öyrənilməsi" layihəsi başa çatdı. Layihə 6 ay müddətində davam etdi. Layihə çərçivəsində insanlar üçün patogen olan *E.coli* və *Salmonella spp* kulturaları ilə yoluxdurulmuş süd məhsullarında həmin bakteriyaların yaşama qabiliyyəti müxtəlif ekspozisiya və duz məhlulunun fərqli konsentrasiyalarında *in vitro* şəraitində müqayisəli şəkildə öyrənildi.

Layihə Beynəlxalq Epizootik Büro, ISO standartları və ABŞ Klinik Laboratoriya Standartlarına uyğun olaraq aparıldı. *Salmonella spp* ayırmaq üçün ISO 6579:2002, *E.coli*-nin izolyasiyası və kulturasiyası ISO 16649-1: 2018 standartlarının tələblərinə uyğun olaraq həyata keçirildi. Layihədən əldə edilmiş natamam nəticələr 2019-cu il noyabrın 25-i və 26-da "Baytarlıq elminin inkişaf istiqamətlərində innovasiyaların tətbiqi" mövzusunda Bakıda keçirilmiş beynəlxalq elmi-praktiki konfransda təqdim edildi. Layihənin tam nəticələrinin "Khazar Journal of Science and Technology" jurnalında nəşr olunması planlaşdırılır.

On January 30, 2020, Khazar University Department of Life Sciences has completed a project on "Study of the viability of *E.coli* and *Salmonella spp* in increasing concentrations of salt in dairy products during different exposure periods", which began in August 2019. The project lasted 6 months. Within the project, the viability of these bacteria in dairy products infected with *E. coli* and *Salmonella spp* cultures, which are pathogenic to human beings, was compared *in vitro* with different exposures and different concentrations of saline solutions. The project was conducted in accordance with the International Epizootic Bureau, ISO standards, and US Clinical Laboratory Standards. Isolation and cultivation of *E. coli* was performed in accordance with ISO 16649-1: 2018 for isolation of *Salmonella spp* in compliance with ISO 6579:2002 standard. Incomplete results from the project were presented on November 25 and 26, 2019 at the international scientific-practical conference on "Application of Innovations in the Development of Veterinary Science". The full results of the project are planned to be published in "Khazar Journal of Science and Technology".

# RİYAZİYYAT SAHƏSİNDƏ DAHA BİR ELMİ MƏQALƏ ÇAP OLUNDU

# ANOTHER SCIENTIFIC ARTICLE IN MATHEMATICS PUBLISHED

Xəzər Universitetinin Riyaziyyat departamenti universitet adından nüfuzlu elmi jurnallarda məqalə çapı istiqamətində fəaliyyətini davam etdirir. Riyaziyyat departamentinin professoru Nazim Kərimovun həmmüəllifi olduğu daha bir məqalə Web of Science bazasında indekslənmiş yüksək impakt faktora malik olan "Дифференциальные уравнения" jurnalında çap olunub (Cild 56, 2020).

Khazar University Department of Mathematics continues to publish articles in reputable scientific journals on behalf of the University. Another article coauthored by Professor Nazim Karimov from the Department of Mathematics was published in the journal "Differential equations" ("Дифференциальные уравнения"), which has a high impact factor indexed by Web of Science (Volume 56, 2020).

## KHAZAR JOURNAL OF HUMANITIES AND SOCIAL SCIENCES JURNALININ YENİ NÖMRƏSİ ÇAPDAN ÇIXIB




Khazar Journal of Humanities and Social Sciences jurnalının ("Xəzər humanitar və sosial elmlər yurnalı") yeni nömrəsi (Cild 22, № 4, 2019) çapdan çıxmışdır. Yeni nömrəyə daxil olan məqalələr ədəbiyyat, dil, elmdaxili ünsiyyət və təhsil sahələrinə aiddir. Məqalələrin tam versiyaları ilə burada tanış ola bilərsiniz:

*https://jhss-khazar.org/*

Jurnalın yeni nömrəsində Xəzər Universitetindən də iki müəllifin məqaləsi çap olunmuşdur. Onlar, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və Dillər və ədəbiyyatlar departamentinin doktorantı Mədinə Karahandır.

Sizi Xəzər Humanitar və Sosial Elmlər Jurnalını oxumağa, öz elmi nəşrlərinizdə onun məqalələrindən sitatlar verməyə və çap etdirmək üçün keyfiyyətli və orijinal məqalələrinizi bizə göndərməyə dəvət edirik (Hazırda üstünlük verilən sahələr: təhsil, dil, linqvistika, ədəbiyyat, beynəlxalq münasibətlər və siyasi elmlər, siyasi iqtisadiyyat).

Daha ətraflı məlumatı bu link vasitəsilə əldə etmək olar: *https://jhss-khazar.org/author-guidelines/*

AZƏRTAC bu barədə xəbər yayıb:

*https://azertag.az/xeber/Xezer_humanitar_ve_sosial_elmler_jurnalinin_novbeti_nomresi_chapdan_chixib-1409165*

## NEW ISSUE OF KHAZAR JOURNAL OF HUMANITIES AND SOCIAL SCIENCES PUBLISHED

The new issue (Vol. 22, 4th issue, winter 2019) of ***Khazar Journal of Humanities and Social Sciences*** has been released. The published articles of this issue are from *Literature, Language, Science Communication,* and *Education.* You can read the full articles here: *https://jhss-khazar.org/*

In this new issue, we have two authors from Khazar University as well: Prof. Hamlet Isakhanli, the Founder of Khazar University and the Chairman of its Board of Directors and Trustees, and Madina Karahan, a PhD researcher at the Department of Languages and Literature.

We encourage you to read KJHSS, cite from its publications, and submit your quality and original research papers for possible publication (the priority fields for now are Education, Language/Linguistics/Literature, IR &Political Sciences, and Political Economy). For more information about submission, please, see: *https://jhss-khazar.org/author-guidelines/*

AZERTAC reported on this:

*https://azertag.az/xeber/Xezer_humanitar_ve_sosial_elmler_jurnalinin_novbeti_nomresi_chapdan_chixib-1409165*



# XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI VƏ TƏLƏBƏSİ MİDDLESEX UNİVERSİTETİNDƏ TƏLİMDƏ

Yanvarın 27-dən 31-dək Bakıdakı "British Council" tərəfindən maliyyələşən "Creative Spark" müəssisə layihəsi çərçivəsində Xəzər Universiteti İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Ceyhun Məmmədov, Dizayn departamentinin koordinatoru Xatirə Hüseynəliyeva, sahibkarlıq fənni üzrə müəllimi Abdulla İsayev və Dizayn departamentinin tələbəsi Telman Əsgərov İngiltərənin Middlesex Universitetinə səfər etdilər. Səfər çərçivəsində Xəzər Universitetinin əməkdaşları məhsuldar görüşlər keçirdilər, dizayn, innovasiya və sahibkarlıq sahəsində mövcud tədris planlarının təkmilləşdirilməsi istiqamətində fikir mübadiləsi apardılar və Xəzər Universitetinin tələbəsi Middlesex Universitetinin professorlarının həyata keçirdiyi intensiv təlimlərdə iştirak etdi.

Səfərin ilk günü yaradıcılıq, innovasiya, sahibkar düşüncə tərzi və sahibkar psixologiyası mövzuları ətrafında təlimlərə həsr olundu. Eyni zamanda, Xəzər Universitetinin nümayəndələri Middlesex Universitetinin İnformasiya laboratoriyası və bu laboratoriyanın yerləşdirmə modeli ilə tanış oldular. Bundan başqa, tələbə Telman Əsgərov universitetin Tələbə Əlaqələndirmə komandasının təşkilatçılığı ilə davamlılıq, rifah, araşdırma, müxtəliflik və inklüzivlik kimi mövzuları əhatə edən müxtəlif tədbir və fəaliyyətlərdə iştirak etdi.

Səfərin ikinci günü isə kreativ incəsənət proqramlarının dizaynı, proqram təsdiqi, kredit transferi və qiymət konvertasiyası ilə əlaqədar müxtəlif aspektlərin müzakirəsi aparıldı və interaktiv dizayn nümunələrinin istifadəsi əsasında tədqiqat, dizayn və yaradıcılıq arasındakı əlaqəlilik mövzusunda fikir mübadiləsi həyata keçirildi. Bununla yanaşı, tələbə Telman Əsgərov "Biznesin planlaşdırılması" adlı mühazirədə iştirak etdi, Middlesex Universiteti tələbələrinin biznes ideyaları ilə tanış oldu və qrup müzakirələrinə cəlb olundu.

Növbəti günlərdə, 2020-ci il yaz semestri ərzində sözügedən layihə çərçivəsində tədrisi nəzərdə tutulan "Dizayn, innovasiya və sahibkarlıq" adlı yeni fənnin dərs planı yaradıldı, dizayn və incəsənət sahəsində tədris planının təkmilləşdirilməsi üçün strategiya müəyyənləşdirildi. Bu fənn dizayn və incəsənət tələbələrinə sahibkarlıq qabiliyyətlərini inkişaf etdirməyə, orijinal ideyalar formalaşdırmağa və Britaniya Konsulluğunun dəstəyi ilə həyata keçirilən "Creative Spark" Ali Təhsil Müəssisə layihəsinin əsasını təşkil edən beynəlxalq "Böyük ideya" video müsabiqəsində iştiraka imkan verən biznes layihələr yaratmağa kömək edəcək. "Böyük ideya" müsabiqəsi üçün biznes planların qəbulu və qiymətləndirilməsi 2020-ci ilin aprel və may aylarında aparılacaq və müsabiqədə iştirak müxtəlif ixtisas tələbələri və məzunları üçün açıq olacaq.

Səfər proqramının son günündə Xəzər Universitetinin nümayəndələri "London South Bank" Universitetinin tədqiqat departamentinə səfər etdilər, departament rəhbərliyi ilə görüşlər keçirdilər və Departament və Biznes Həlləri Mərkəzinin fəaliyyəti ilə bağlı geniş təqdimatda iştirak etdilər. Səfər çərçivəsində "London South Bank" Universiteti və Xəzər Universitetinin nümayəndələri qarşılıqlı əməkdaşlıqda maraqlarını ifadə edilər.





# KHAZAR UNIVERSITY STAFF MEMBERS AND STUDENT IN A TRAINING AT MIDDLESEX UNIVERSITY

On January 27-31, within the framework of the Creative Spark Higher Education Enterprise Programme funded by British Council in Baku, Dr. Jeyhun Mammadov, Dean of the School of Economics and Management, Ms. Khatira Huseynaliyeva, Coordinator of the Design Department, Mr. Abdulla Isayev, instructor of Entrepreneurship at Khazar University, Mr. Telman Asgarov, student of the School of Economics and Management, and Ms. Aydan Jamalzade, student of the Design Department paid a visit to Middlesex University in England. During the visit, the staff representatives of Khazar University engaged in fruitful discussions and carried out exchange of ideas on curriculum development in the field of Design, Innovation and Entrepreneurship, and the students had intensive training on entrepreneurship delivered by professors of Middlesex University.

The first day of the visit was dedicated to trainings on entrepreneurial mindset, the psychology of entrepreneurship, innovation, and creativity. Meanwhile, representatives of Khazar University were introduced to the information lab of the Data School and placements model of InfoLab at Middlesex University. Furthermore, the student Telman Asgarov participated in activities and events, organized by the Student Engagement team of the University, covering a range of subjects such as sustainability, wellbeing, research, diversity, and inclusion.

The second day of the visit was dedicated to designing creative art programs, and discussing aspects of program validation, credit transfer, and grade conversion, and discussing the relationship between research (analysis) and design and creativity (synthesis) using examples from interaction design. Moreover, the student Telman Asgarov participated in a business planning lecture, got acquainted with the business ideas of students of Middlesex University and was involved in group discussions.

During the following days, the syllabus of a new course on "Design, Innovation and Entrepreneurship" to be taught within the project in Spring semester 2020 was developed and a strategy for the development of curriculum change in the area of design and arts was outlined. This course will enable students from Design and Arts to develop their entrepreneurial skills, come up with original ideas and produce compelling projects/business plans that can be entered into global Big Idea Challenge video pitch competition, which is a key part of the Creative Spark Higher Education Enterprise Programme of the British Council. Selection and evaluation of potential business plans for the Big Idea Challenge will be conducted in April and May 2020 and the call will be open for students and alumni from different majors.

On the last day of the visit programme, Khazar University representatives also visited the Department of Research, Enterprise and Innovation of London South Bank University and met with its leadership. Broad information was presented on the activities of the Department and its Business Solutions Centre. The representatives of Khazar University and London South Bank University expressed their interest in starting successful cooperation.

## "XƏZƏR XƏBƏR"İN ƏMƏKDAŞININ MƏQALƏSİ *MODERATOR.AZ*-DA

## ARTICLE BY "KHAZAR REVIEW" MEMBER AT *MODERATOR.AZ*

2020-ci il fevralın 3-də *Moderator.az* xəbər portalı Xəzər Universiteti "Xəzər Xəbər" jurnalının əməkdaşı, əməkdar jurnalist Əlirza Balayevin "Gecə" sözünün dilimizdəki eybəcər variantı haqqında" sərlövhəli məqaləsini dərc etmişdir.

Məqalədə müəllif Azərbaycan dilində müxtəlif tədbirlər mənasında işlənən "gecə" sözündən imtina etməyi, onun dilimizdəki uyğun sözlərlə əvəz olunmasını və zərurət yarandıqda Azərbaycan dilinin bütün orfoqrafiya lüğətlərində yer alan "müsamirə" sözünü işlətməyi təklif edir.

Məqaləni bu linkdə oxumaq olar:

*https://www.moderator.az/news/309206.html*

On February 3, 2020, *Moderator.az* published an article by Alirza Balayev, member of Khazar University's "Khaza Review" Journal, an honored journalist, entitled "An Ugly Version of the Word Night in our Language".

In the article, the author proposes to refrain from the word "night" (gece), which is used in Azerbaijani language in the context of various activities, to replace it with the corresponding words in our language, and, whenever necessary, to use the word "musamire" instead, which appears in all the orthography dictionaries of the Azerbaijani language.

The article can be read at the following link:

*https://www.moderator.az/news/309206.html*

## IMF.LIBRARY XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI ÜÇÜN AÇIQ OLACAQ

## IMF.LIBRARY WILL BE OPEN TO KHAZAR UNIVERSITY STAFF

**IMF.Library** – Beynəlxalq Valyuta Fondunun elektron kitabxanası 2020-ci il üçün Xəzər Universitetinin professor-müəllim heyəti və Kitabxana İnformasiya Mərkəzinin oxucuları üçün açıq olacaq. Elektron kitabxananın bazasında iqtisadiyyat, maliyyə, biznes, kommersiya və digər iqtisadi sahələri əhatə edən jurnal, məqalə və kitablardan istifadə etmək mümkündür.

Bu link vasitəsilə Beynəlxalq Valyuta Fondunun elektron kitabxanasından istifadə etmək olar:

*www.elibrary.imf.org*

**IMF.Library** - The International Monetary Fund's e-library will be open to Khazar University faculty and Library and Information Center's readers by 2020. The electronic library will provide access to journals, articles and books in economics, finance, business, commerce and other economic fields.

The International Monetary Fund's electronic library can be accessed at this link:

*www.elibrary.imf.org*



## CBELT LAYİHƏSİ FƏALİYYƏTDƏ

Xəzər Universiteti və ABŞ-ın Azərbaycandakı səfirliyi arasında tərəfdaşlıq nəticəsində başlanan CBELT Layihəsi 16 yanvar 2020-ci il tarixindən etibarən məcburi köçkün məktəblərinin ingilis dili müəllimləri üçün təlimlərə başlayıb.

Təlimlərdə Bakı və Sumqayıt şəhərlərinin məcburi köçkün məktəblərinin müəllimləri fəal iştirak edirlər. Onlara Modul 1 (Dil öyrənmə və tədris üçün əsas) tədris olunur. Hər bir məşğələ zamanı ingilis dili öyrətmə bacarıqlarını inkişaf etdirmək üçün yeni strategiya, metod və fəaliyyətlər öyrənirlər.

## CBELT PROJECT

CBELT Project, launched as a result of partnership between Khazar Univeristy and US Embassy to Azerbaijan, started trainings for English language instructors of IDP schools since January 16th, 2020.

Teachers from IDP schools of Baku and Sumgait are actively participating at the training sessions. They are currently being taught Module 1 (Background to language learning and teaching). During each training session they develop professionally learning new strategies, methods and activities to improve English teaching skill





# DƏNLİ TAXIL VƏ DƏRMAN BİTKİLƏRİNİN SELEKSİYASINA HƏSR OLUNMUŞ SEMİNAR

# SEMINAR ON BREEDING OF CEREALS AND MEDICINAL PLANTS CONCLUDED

Fevralın 4-ü və 5-də Xəzər Universitetinin Həyat elmləri departamentinin təşəbbüsü ilə İranın Təbriz Universitetinin Kənd təsərrüfatı fakültəsinin Bitki seleksiyası və biotexnologiya departamentindən dəvət olunmuş professor Seyid Əbulqasım Məhəmmədi elmi seminar keçirdi. Seminarın birinci günü "Genetik ehtiyatlardan istifadə edərək, molekulyar seleksiyanın tətbiqi nəticəsində buğda bitkisinin məhsuldarlıq potensialının və stress tolerantlığının artırılması *(Molecular breeding to enhance yield potential and stress tolerance in wheat through exploitation of genetic resources)*" mövzusuna həsr olundu. Seminarda professor Məhəmmədi buğda bitkisinin molekulyar seleksiyasının ən son biotexnologiya metodları vasitəsilə həyata keçirilməsi, eyni zamanda, dünyada sürətli seleksiya (*speed breeding*) üsulu haqqında geniş məlumat verdi.

Seminarın ikinci günü isə dərman bitkilərinin molekulyar analizinə həsr olundu.

Seminar Azərbaycanın müxtəlif təhsil və elm mərkəzlərindən –Xəzər Universiteti, Azərbaycan Baytarlıq Elmi-Tədqiqat İnstitutu, AMEA Genetik Ehtiyatlar İnstitutu, Bakı Dövlət Universiteti və Azərbaycan Qida Təhlükəsizliyi İnstitutundan dəvət olunmuş alimlər, mütəxəssislər və tələbələrin iştirakı ilə keçirildi. Seminarda Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova, həmçinin Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Dr. Hassan Niknafs iştirak edirdilər.

Tədbir ümumilikdə interaktiv keçərək, iştirakçılar tərəfindən yüksək qiymətləndirildi. Tədbirin sonunda Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova professor Məhəmmədi ilə gələcək perspektivləri müzakirə etməklə, Xəzər Universitetində genomika və biometriya sahələrində təlim kurslarının keçirilməsi və birgə layihələrin planları haqqında fikir mübadiləsi apardılar.

Sonra dəvət edilmiş qonağa sertifikat və hədiyyələr təqdim olundu.

On February 4 and 5, 2020, upon the initiative of the Department of Life Sciences at Khazar University, Professor Seyyed Abolghasem Mohamadi from the Department of Plant Breeding and Biotechnology at the Faculty of Agriculture of Tabriz University of Iran, held a scientific seminar. The first day of the seminar was dedicated to "Molecular breeding to enhance yield potential and stress tolerance in wheat through exploitation of genetic resources". At the seminar, Professor Mohamadi gave detailed information on the implementation of molecular selection of wheat plants using the latest biotechnology techniques, as well as the speed breeding method worldwide.

The second day of the seminar was devoted to molecular analysis of medicinal plants.

The seminar was attended by the scientists, experts and students from various educayion and scientific centers of Azerbaijan – Khazar University, Azerbaijan Veterinary Research Institute, Institute of Genetic Resources of ANAS, Baku State University, Azerbaijan Food Safety Institute. Associate Professor Irada Khalilova, the Rector of the University, and Dr. Hassan Niknafs, the Dean of the School of Science and Engineering, also took part in the seminar. The event was generally interactive and highly appreciated by the participants. The event was generally interactive and highly appreciated by the participants. At the end of the event, Associate Professor Irada Khalilova, discussed future perspectives with Professor Mohamadi and exchanged views on teaching courses in genomics and biometrics at Khazar University and plans for further joint projects.

Later on, invited guest was presented with certificates and gifts.





















# PSİXOLOGİYA DEPARTAMENTİNİN ƏMƏKDAŞI SEMİNARDA

# PSYCHOLOGY DEPARTMENT MEMBER DELIVERS SPEECH AT SEMINAR

Fevralın 6-da Xəzər Universitetinin Psixologiya departamentinin müəllimi və doktorantı Nilufər Əlizadə "Fairmont" Otel təlim və inkişaf departamentinin təşkil etdiyi peşəkar inkişaf təlimində spiker kimi çıxış etdi. Seminarda psixoloji rifahın qazanılması, iş yerində psixoloji sağlam mühitin qorunması və işçilərin motivasiyasının artırılma yolları haqqında çıxış etdikdən sonra Nilufər Əlizadə iştirakçıların maraqla qarşıladığı proyeketiv testlər keçirərək, onların suallarını da cavablandırdı.

On February 6, Nilufar Alizade, an instructor and PhD student at Khazar University Department of Psychology, took on the role of a speaker at a professional development training organized by the Fairmont Hotel Training and Development Department. After delivering speech at the seminar about the ways to gain psychological well-being, maintaining a healthy psychological environment at work, and increasing motivation for employees, Nilufar Alizade also answered the questions of the participants by conducting projective tests.







# HƏYAT ELMLƏRİ DEPARTAMENTİNDƏ SEMİNAR

# SEMINAR AT LIFE SCIENCES DEPARTMENT

Fevralın 7-də Xəzər Universiteti Həyat elmləri departamentinin PhD tələbələri və biologiya, kimya-biologiya ixtisası üzrə təhsil alan yuxarı kurs tələbələri üçün "Laboratoriyaların bioloji təhlükəsizlik səviyyələrinə görə təsnifatı və laboratoriyalarda biotəhlükəsizlik, biomühafizə tədbirləri" adlı seminar keçirildi.

Tədbirdə ABŞ-ın bioloji təhlükənin azaldılması proqramı çərçivəsində Azərbaycanda fəaliyyət göstərən laboratoriyaların biotəhlükəsizlik üzrə təlimçisi Könül Quliyeva "Laboratoriyalarda biotəhlükəsizlik və biomühafizə tədbirləri", Azərbaycan Elmi Tədqiqat Baytarlıq İnstitutunun BSL-3 səviyyəli laboratoriyasının müdiri Şəlalə Zeynalova "Laboratoriyaların biotəhlükəsizlik səviyyələrinə görə təsnifatı" mövzularında çıxış etdilər. Təlimçilər fərdi mühafizə vasitələrini əyani nümayiş etdirərək, bioloji təhlükə zamanı onların istifadəsini praktik olaraq göstərdilər.

On February 7, a seminar on "Laboratory Biosafety Classification and Biosafety and Biosecurity Measures in Laboratories" was held for PhD students and senior students majoring in biology, chemistry-biology, from Khazar University Department of Life Sciences.

During the event, Konul Guliyeva, biosecurity trainer of laboratories operating in the US within the US Biological Threat Reduction Program, delivered talk on "The Biosafety and Biosecurity Measures in the Laboratory", whereas Shalale Zeynalova, Director of BSL-3 Laboratory of Azerbaijan Scientific Research Veterinary Institute, talked about "Laboratory Biosafety Classification". Instructors demonstrated the use of personal protective equipment in a visual manner, demonstrating their use in biological hazards.





# MİLLİ XALÇA MUZEYİNDƏ "AFAQ KƏRİMOVANIN YARADICILIĞINDA SÜJETLİ XALÇALAR" MÖVZUSUNDA TƏQDİMAT

# PRESENTATION OF "NARRATIVE CARPETS IN AFAG KARIMOVA'S CREATIVITY" AT THE NATIONAL CARPET MUSEUM

Fevralın 8-də Azərbaycan Milli Xalça Muzeyində Mədəniyyət və turizm nazirliyi və Xalça muzeyinin təşkilatçılığı ilə xalçaçı rəssam, Xəzər Universitetinin müəllimi, universitetin xalça müzeyinin direktoru Afaq Kərimovanın "Afaq Kərimovanın yaradıcılığında süjetli xalçalar" mövzusunda təqdimatı keçirildi.

Tədbirdə ölkənin tanınmış incəsənət və elm xadimləri, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və əməkdaşları, sənətsevərlər iştirak edirdilər.

Xalça muzeyinin direktor müavini, əməkdar mədəniyyət işçisi Asya Şirəliyeva tədbiri açaraq, Afaq Kərimovanın yaradıcılığı haqqında geniş məlumat verdi.

Afaq Kərimova çıxışında üzərində illərlə işlədiyi əsərlərinin hazırda ölkəmizin və xarici ölkələrin muzeylərinin daimi eksponatı olmasından danışdı və qeyd etdi ki, əsərlər müxtəlif zamanlarda yubileylər münasibətilə yaransa da, Azərbaycan tarixi və mədəniyyətinin Dədə Qorquddan başlamış müasir dövrədək xronoloji ardıcıllığını əhatə edir. O, müxtəlif dövrlərdə yaratdığı "Dədə-Qorqud", "Nizami", "Məhsəti Gəncəvi", "Füzuli-500", "Vazeh", "Hüseyn Cavid", "Sənsiz", "Natəvan", "Səməd Vurğun", "60-cılar", "Ziyalı" və digər süjetli xalçalar barədə maraqlı məlumatlar verdi və hər bir xalçanın süjeti və texniki cəhətində etdiyi yeniliklərdən danışdı.

Qeyd etdi ki, Heydər Əliyev Fondunun sifarişi ilə Nizami Gəncəvinin "Xəmsə"si əsasında hazırladığı beş xalça, Məhsəti Gəncəvi xalçası və ipək üzərində işlənmiş batikası Fransanın Parisdən başqa Kann, Strasburq və Reyms şəhərlərində bir il ərzində nümayiş etdirilib və hazırda Parisdə Azərbaycan Mədəniyyət Sarayının daimi eksponatlarındandır.

Çıxışından sonra Afaq Kərimova iştirakçıların suallarını cavablandırdı.

Tədbirdə xalçaçı rəssam Fazil Abbasquluzadə, xalça müzeyinin əməkdaşı Dürdanə Qədirova çıxış edərək, Afaq Kərimovanın yaradıcılığı haqqında fikirlərini bildirdilər. Sonda professor Hamlet İsaxanlı tədbir haqqında müsbət təəssüratını iştirakçılarla bölüşdü.

On February 8, 2020, a presentation of "Narrative Carpets in Afag Karimova's Creativity", a carpet artist, teacher at Khazar University, and Director of the University's carpet museum, was jointly organized by the Ministry of Culture and Tourism and the Carpet Museum at the National Carpet Museum.

The event was attended by well-known art and science figures of the country, Professor Hamlet Isakhanli, the Founder of Khazar University, Chairman of its Board of Directors and Trustees, and University staff members, as well as fine arts society.

Asya Shiraliyeva, Deputy Director of the Carpet Museum, Honored Art Worker, opened the event and in her statement, spoke extensively about Afag Karimova's creativity.

Delivering her speech, Afag Karimova indicated that her works, which she worked on for many years, are now a permanent exhibit of museums in our country and abroad, noting that despite the fact that the works were created being devoted to anniversaries, they still sequenced in chronological order covering the history and culture of Azerbaijan from Dede Gorgud to modern times. She further provided interesting facts about narrative carpets such as "Dede-Gorgud", "Nizami", "Mahsati Ganjavi", "Fuzuli-500", "Vazeh", "Huseyn Javid", "Sensiz", "Natavan", "Samed Vurgun", "60s", "Intellectuals" and spoke about the innovations in the storyline and technical specifications of each carpet.

Five carpets designed in accordance with Nizami Ganjavi's "Khamsa", Mahsati Ganjavi carpet and silk batik prepared by the order of the Heydar Aliyev Foundation, have been on display for over a year in Paris, Cannes, Strasbourg and Reims, and are now one of the Azerbaijani Cultural Center 's permanent exhibits in Paris.

After the speech, Afag Karimova answered to the questions of the participants.

At the event, Fazil Abbasguluzade, the carpet artist, and Durdana Gadirova, the carpet museum employee, shared their views about the creativity of Afag Karimova. At the end, Professor Hamlet Isakanli shared his positive impressions about the event with the participants.











# XƏZƏR UNİVERSİTETİNDƏ PROFESSOR RAFİQ ƏLİYEVİN GÖRKƏMLİ ALİM LÜTFİ ZADƏ İLƏ BİRGƏ YAZDIĞI VƏ XARİCDƏ ÇAP EDİLMİŞ KİTABIN TƏQDİMATI

# PRESENTATION OF PROFESSOR RAFIG ALIYEV AND DISTINGUISHED SCIENTIST TLOTFI ZADEH'S JOINT BOOK PUBLISHED ABROAD

Fevralın 10-da Xəzər Universitetinin Mərmər salonunda AMEA-nın müxbir üzvü, professor Rafiq Əliyevin Lütfi Zadə ilə birgə yazdığı və xaricdə çap edilmiş"Fuzzy logic theory and applications" (Qeyri-səlis məntiq – nəzəriyyə və tətbiqetmələr) kitabının təqdimatı keçirildi. Tədbirdə universitetin rəhbərliyi və əməkdaşları, ölkənin tanınmış elm və mə-dəniyyət xadimləri iştirak edirdilər.

Tədbiri Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova açaraq, qonaqları salamladı. Tədbirin aparıcısı, filologiya elmləri doktoru, professor Qulu Məhərrəmli çıxışında professor Rafiq Əliyevin Lütfi Zadə ilə sıx əməkdaşlığından və bunun nəticəsində ərsəyə gələrək təqdim olunan kitabın elmi ictimaiyyətdə doğurduğu böyük maraq və əhəmiyyətindən danışdı.

Sonra professor Rafiq Əliyevin həyat və fəaliyyətinə aid, Lütfi Zadənin onun haqqında fikirlərindən ibarət sənədli filmlər və tədbir boyu dünyanın müxtəlif alimlərinin professor Rafiq Əliyev haqqında sözləri yazılmış slaydlar nümayiş olundu.

Çıxış edənlər - texnika elmləri üzrə fəlsəfə doktoru, dosent Akif Əlizadə, akademik Akif Musayev (AMEA, iqtisadiyyatçı), texnika elmləri doktoru, professor Rafiq Mehdiyev (İstanbul Texnik Universiteti), jurnalist Elmin Nuri (edu.az-saytı), şair, publisist Rafail Tağızadə ("Su kimi sakit və güclü" kitabının tərtibatçısı), Xalq şairi Ramiz Rövşən, yazıçı-dramaturq Əli Əmirli və professor Rafiq Əliyevin nəvəsi, İngiltərənin "Durham" Universitetinin bakalavr, "Warwick" Universitetinin magistr məzunu Rafiq Əliyev çıxış edərək, professor Rafiq Əliyevin elmi fəaliyyətinin və şəxsiyyətinin müxtəlif cəhətlərindən danışdılar.

Tədbirdə, həmçinin, professor Rafiq Əliyevə həsr olunmuş "Su kimi sakit və güclü" adlı kitabdan da söhbət açıldı. Bu topluda alimin müxtəlif illərdə yazdığı populyar məqalələr, mətbuata verdiyi müsahibələr və onun barəsində qələmə alınmış yazılar yer alıb.

Sonda professor Rafiq Əliyev çıxış edərək, Xəzər Universitetinin rəhbərliyinə, tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirdi.

Tədbirin əvvəlində iştirakçılara Xəzər Universitetinin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqovanın rəhbərliyi ilə universitetin Kamera orkestrinin konserti təqdim olundu.

On February 10, Presentation of the Book on "Fuzzy Logic Theory and Applications", jointly written by Professor Rafig Aliyev, corresponding member of ANAS, and Lotfi Zadeh, which was published abroad, was held at Khazar University's Marble Hall. The event was attended by University leadership and staff, well-known scientists and cultural figures of the country.

Delivering her opening statement Associate Professor Irada Khalilova, the Rector of Khazar University, welcomed the guests. The speaker of the event, Doctor of Philology, Professor Gulu Maharramli in his speech spoke about the close cooperation of Professor Rafig Aliyev with Lotfi Zadeh and the great interest and importance of the book which has been created as a result of this cooperation.

Then there was a documentary films that included the life and activity of Professor Aliyev, the views of Lotfi Zadeh about him and the slides with the words of the scholars about Professor Rafig Aliyev were also demonstrated during the event.

The following Speakers of the event delivered speeches, talking about different aspects of Professor Rafig Aliyev's scientific activity – Doctor Akif Alizade, PhD in Technical Sciences; Academician Akif Musayev (ANAS, Economist); Professor Rafig Mehdiyev, PhD in Technical Sciences (Istanbul Technical University); Journalist Elmin Nuri (edu.az website, science populist); Poet and Publicist Rafail Taghizade (compiler of the book "Su kimi sakit və güclü" (Quiet and Powerful as Water)), People's Poet Ramiz Rovshan; Playwriter Ali Amirli; and Rafig Aliyev's grandson, Durham University (BSc), and Warwick University (MSc) alumnus - Rafig Aliyev.

There was also a discussion about the book "Quiet and Powerful as Water", dedicated to Professor Rafig Aliyev. This collection includes popular articles written by the scientist over the years, interviews with the press and articles written about him.

At the end of the event, Professor Rafig Aliyev thanked Khazar University Leadership, the organizers and participants of the event.

The participants were presented a concert of the University's Chamber Orchestra, at the beginning of the event, led by Zulfiya Sadigova, Head of the Department of Music and Fine Arts at Khazar University, honored teacher and pianist.

























# "HANSI İNSAN MƏNTİQLİ OLMAĞI MƏNTİQ DƏRSİ KEÇMƏKLƏ ÖYRƏNİB?»-TƏSİSÇİ NARAZIDIR

*2020-ci il fevralın 11-də Sherg.az xəbər portalı "Xəzər" universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə müsahibə dərc etmişdir. Müsahibəni oxucularımıza təqdim edirik.*

**"Subbakalavrları universitetlərə bağladılar. Bununla da, düşünürəm ki, peşə təhsili öldürüldü. Çünki universitet peşə təhsili verə bilmir."**

**"İmtahanlarda yazılı hissə ilə test hissəsini kombinasiya etmək daha ağlabatan olardı."**

*Son illər Azərbaycanın təhsil həyatında müəyyən dəyişikliklər baş verib. Yeniliklərə magistraturaya qəbul imtahanında ikinci mərhələnin (ixtisasdan imtahan) ləğvi və Müəllimlərin İşə Qəbulu (MİQ) imtahanında məntiq suallarının çıxarılması məsələləri daxildir. Bundan başqa, subbakalavrların universtetlərə imtahansız qəbulu, bəzi peşə ixtisaslarının ali məktəblərə köçürülməsi həmin dəyişikliklər sırasındadır. Əlbəttə, bu mövzulara dair ikili yanaşma mövcuddur. Bəzi ekspertlər məlum qərarların vacib olduğunu söyləyərək, mühüm effekt verəcəyini iddia edirlər. Bəziləri isə tamamilə əksini düşünür. Biz də Sherg.az olaraq bütün bu məsələlərə aydınlıq gətirmək məqsədilə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə əlaqə saxladıq (telefonla).*

*Söhbəti təqdim edirik.*

**-Magistraturaya qəbul imtahanlarının ikinci mərhələsi ləğv edildi. Bu addımı necə qiymətləndirirsiniz?**

-Dünya təcrübəsinə baxanda görürük ki, tələbəni universitetə qəbul edəndə onu oxuyacağı ixtisasdan, öyrənəcəyi fənlərdən tam imtahan etmirlər. Hər şeydən əvvəl onun ümumi dünyagörüşü, savadı və dil bilgisini yoxlayırlar. Qalanını, yəni ixtisasla bağlı fənləri isə universitet qəbul edəndən sonra öyrədir. Mən də bunun tərəfdarıyam. Təcrübə də göstərir ki, təhsildə ifrat mərkəzləşdirmə heç vaxt keyfiyyəti yuxarı qaldırmır. Doğrudur, bir zamanlar mərkəzləşmə qəbul imtahanlarında rüşvətin və digər neqativ halların qarşısının alınmasında böyük rol oynayıb. Amma indi dünya dəyişir, şərtlər, vəziyyət və meyillər dəyişib. Bu mənada qəbul sistemini də liberallaşdırmaq lazımdır. Universitet özü məsuliyyət daşımalıdır. Tələbəni universitetlər özü seçməlidir. Xəzər Universiteti bu yöndə daha düzgün yol tutub. Tələbələr ümumi məsələlərdən imtahan verirlər, universitet isə dərsləri elə təşkil edir ki, mütəxəssis hazırlansın.

**-MİQ imtahanlarından məntiq sualları çıxarıldı…**

-Bəzən orta məktəbdə və ya ali məktəbdə məntiqə dair dərslər keçirilir, suallar salınır. İnanın, mən onları heç zaman qəbul etmirəm və başa da düşmürəm. Hansı insan məntiqli olmağı məntiq dərsi keçməklə öyrənib? Belə bir şey yoxdur. Təbiət elmləri məntiqi daha diqqətlə öyrədir. Humanitar elmlərdə isə bulanıq məntiqdir. Lütfi Zadənin dili ilə desək qeyri-səlis məntiq. Məntiqdən imtahan mənasız yoxlamadır. Heç bir ölkədə buna bənzər imtahan tətbiq edilmir. MİQ imtahanından məntiq suallarının çıxarılması düzgün addımdır.

**-Subbakalavrların bakalavrlarla eyni auditoriyanı paylaşması məsələsinə dair də narazılıqlar**

**var. İddia olunur ki, 80 balla qəbul olunub, 3 il kollec təhsili alanların intellektual səviyyəsi 400-500 bal toplayan bakalavrın intellektual səviyyəsinə adekvat deyil. Yəni, intellektual balans pozulur. Siz nə düşünürsünüz?**

-Həmişə bunun əleyhinə olmuşam. Subbakalavrları universitetlərə bağladılar ki, onları ali məktəblər öz bakalavr tələbə tərkibinə daxil etsinlər. Bununla da, peşə təhsili, demək olar ki, ləğv olundu, öldürüldü. Çünki universitet peşə təhsili verə bilmir. Mən bu layihənin əleyhinəyəm. Çox böyük səhvdir. Bu, iki baxımdan yanlışdır. Birinci, peşə təhsilinin məhv olmasıdır, ikinci, onların gəlib, bakalavrlarla eyni auditoriyada oturub təhsillərini davam etdirməlidirl. Burada istisnalar ola bilər. 50 adam subbakalavr bitiribsə, onlardan 1-2 nəfər qeyri-adi nəticə göstərəni bakalavr pilləsinə qəbul etmək olar. Amma onların hamısının qəbul edilməsi düzgün deyil.

**-Ali məktəbə sənəd verib, DİM-in imtahanında uğur qazana bilməyən abituriyentlərin seçdiyi universitetə yenidən sənəd verib, hazırlıq kurslarına başlaması və bu kursu bitirdikdən sonra həmin ali məktəbin birinci kursuna qəbul olunması da gündəmdədir. Bunun effekti necə olacaq?**

-Birincisi, hələ belə bir qayda yoxdur. Bu, olduqca həssas mövzudur. Qiymətləndirmək çətindir. Universitetdən universitetə fərq var. Doğrudanmı, universitetlər hazırlığı güclü şəkildə həyata keçirəcək? Subbakalavrlarda olduğu kimi, onu da ali məktəbə asan korridor halına salacaqlar. Yəni, çalışacaqlar ki, təki uşaqlar universitetə doluşsunlar. Bu halda mənfi nəticələr əldə olunacaq. Bunun üçün müəyyən bir mexanizm düşünmək lazımdır. Amma hələ ki belə bir qərar qəbul edilməyib.

**-Universitetdaxili imtahanlarda test sisteminin tətbiqi də müzakirələrə səbəb oldu. Bəzi ekspertlər bildirirlər ki, ali təhsil ocaqları şəffaflığı təmin edib, yazılı imtahanlara keçməlidirlər. Sizcə, yazılı imtahanlara keçid labüddürmü və bunun müsbət nəticəsi olacaqmı?**

-İmtanlarda yazılı hissə ilə testi kombinasiya etmək daha ağlabatan olardı. Məsələn, riyaziyyat kimi fənnin imtahanını ancaq testlə aparmaq gülməli görünür. Riyaziyyatın gücü odur ki, tələbə məsələ, misal həll etsin, yaradıcı gücünü göstərsin. Misal - məsələnin orjinal həlli yollarını göstərsin. Yoxsa, "a, b, c-dən birini seç" kimi cavab yazmaq mənasız işdir. Test bəzi fənlərdə köməkçi rol oynaya bilər. Amma istənilən variantda yazı ilə testi kombinasiya etmək mümkündür. Analitik məsələlərdə yazının rolu çox böyük olur. Biz çox vaxt o cür edirik. İmtahanlarda test az yer tutur. Bəzi imtahanlarda isə yazı və test yanaşı gedir.

**-Peşə təhsilinə diqqət çəkdiniz. İndiki dövrdə peşə təhsilinə, peşə məktəblərinin yetişdirdiyi kadrlara əmək bazarında olduqca böyük ehtiyac var. Amma kadrlar az yetişir...**

-Peşə təhsili həddindən artıq ciddi məsələdir. Cəmiyyətin mərkəzi məsələlərindən biridir. Universitetə qəbul olunmayan insanlar peşə öyrənməklə xoşbəxt yaşaya bilərlər. Amma bizdə peşə təhsili sahəsində islahatlar çox azdır, yox səviyyəsindədir. Peşə məktəblərinin universitetlərə bağlanması, dediyim kimi, peşə təhsilini məhv etdi. Universitet peşə sahəsi üzrə kadr yetişdirməkdə çətinlik çəkir. Məsələn, restoranlar aşpaz yetişdirir. Universitet bu işdə maraqlı deyil. Onların profili başqadır. Hətta universitet bu işə girişsə, həvəsi olsa, onu həmin profilə uyğun xidmət və sənaye müəssisəsi ilə həyata keçirə bilər. Məsələn, iş verən desin ki, mənə bu cür kadr lazımdır, bizdə təcrübə keçəcək, amma siz onların dərslərini təşkil edin. Azərbaycanda peşə təhsilini təkmilləşdirmək üçün, məsələn, Almaniyanın təcrübəsindən faydalanmaq olar. «Mercedes» istehsal edən böyük müəssisədə işləyənlərin xeyli hissəsinin ali təhsili yoxdur. Orada montaj edən var, sadə sxemləri yığan var. Onları xüsusi öyrədirlər. Amma onların öyrədilməsində "Mercedes» şirkətinin özü iştirak edir. Peşə məktəbində oxuyur, "Mersedes"də təcrübə keçirlər və sonradan onları işə götürürlər. İstehsal müəssisələri ilə təhsili təşkil edən qurumlar birgə çalışmalıdırlar.

***https://sherg.az/x%C9%99b%C9%99r/118538***

## INTERVIEW WITH PROFESSOR HAMLET ISAKHANLI PUBLISHED ON *SHERG.A*

On February 11, 2020, *Sherg.az* news portal published an interview with Professor Hamlet Isakhanli, the Founder of Khazar University, Chairman of its Board of Directors and Trustees, entitled "Founder raises objections: This is a huge mistake" The interview can be read through the following link:
***https://sherg.az/x%C9%99b%C9%99r/118538***





# İRAQ SƏFİRİ XƏZƏR UNİVERSİTETİNDƏ

# AMBASSADOR OF IRAQ VISITED KHAZAR UNIVERSITY

Fevralın 12-də İraqın Azərbaycan Rrespublikasındakı yeni səfiri Maki Almamori, səfirliyin birinci katibi Dr. Huthaifa Z.Mahmoud və üçüncü katib Zaid M.Abed Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova ilə Xəzər Universitetində görüşdülər. Görüşdə Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Elmar Mustafayev və Beynəlxalq əlaqələr şöbəsinin koordinatoru Lamiyə Pənahova iştirak edirdilər.

Görüş ərzində universitet və səfirlik arasında sıx əməkdaşlığın davam etdirilməsinin, eləcə də, Xəzər Universitetinin İraqda və İraq vətəndaşları arasında daha çox tanıdılmasının məqsədəuyğunluğu vurğulandı. Səfir İraq tələbələrinin və tədqiqatçılarının Xəzər Universitetində sayının artırılmasının hər iki tərəf üçün səmərəli olacağını söylədi, yaxın gələcəkdə Xəzər Universitetində İraqdan olan tələbələr qrupunun daha da genişlənəcəyinə inandığını ifadə etdi.

Görüdə tərəflər qarşılıqlı anlaşmanı gücləndirmək üçün sıx əməkdaşlığın davam etdirilməsinə razılıq verdilər. Sonda səfir rektora hədiyyə təqdim etdi.

On February 12, Newly appointed Ambassador of Iraq to the Republic of Azerbaijan, H. E. Mr. Maki Almamori together with the First Secretary of the Embassy Dr. Huthaifa Z. Mahmoud and Third Secretary Zaid M. Abed visited Khazar University to meet with Associate Professor Irada Khalilova, the Rector of the University. Dr. Elmar Mustafayev, Head of the Political Science and Philosophy Department and Ms. Lamiya Panahova, Coordinator of International Affairs Office, also participated in the meeting.

During the meeting the expedience of continuing close cooperation between the University and the Embassy was emphasized and prospects to increase the popularity of Khazar University in Iraq and among Iraqi citizens were discussed. The Ambassador noted that increasing the number of Iraqi students and researchers at Khazar University would be beneficial for both parties, expressing his hopes to have a bigger student community from Iraq studying at Khazar University in the near future.

During the meeting, the parties agreed on further close cooperation to strengthen mutual understanding between two parties. At the end the Ambassador presented gift to the Rector.





# NİKOLAY SERGEYEVİÇİN HƏYATI VƏ İŞİ



**Roman Sençin**
***Rusiya***

*Çağdaş rus ədəbiyyatının usta nümayəndəsi Roman Sençin (1971) nasir, tənqidçi və redaktor kimi Rusiyada da, xaricdə də geniş tanınır. İlk hekayələri 1990-cı illərin ortalarında çap olunub. Ədəbiyyat İnstitutunda təhsil alıb, sonra orada seminarlar aparıb. Ədəbi mühitin və oxucuların maraqla qarşıladığı hekayələrin, povestlərin, "Minus", "Yoltuşevlər", "İnformasiya" və digər romanların müəllifidir.*

*Ədəbi mükafatlara layiq görülüb. Nüfuzlu ədəbi müsabiqələrdə fərqlənib. "Ədəbi Rusiya" qəzetinin redaktorudur.*

I

Martın 24-ü, çərşənbə – Nikolay Sergeyeviç Toloknovun asudə günü idi. Bağa getməyə hazırlaşırdı ki, görsün, qışdan bəri oralarda nə var-nə yox, di gəl, səhərdən hava tutqun idi, arabir sərt sazaq əsirdi. Toloknov büzüşmüş, üzünü turşutmuş halda ikicə dəqiqə eyvanda siqaret çəkdi, dərhal da isti otağa qayıdıb, eyvanın qapısını bərk-bərk örtdü.

– Yaxşı, Kolya, gediləsi deyil, – səhər yeməyi hazırlayan arvadı dedi, – qar qapıdadır. Gözləyək hələ, əlimyandıda qalmamışıq... Rahatca dincəl evdə.

Nikolay Sergeyeviç razılaşdı. Səhər yeməyini yedilər. Qızı – tibb institutunun ikinci kursunda oxuyan Marina qaçdı mühazirəyə. Arvadı qab-qaşığı yudu, buzluqdan borşluq ət çıxardıb, nəsə tikmək üçün otağa keçdi, Toloknov isə, hər asudə günündəki kimi, ağac üzərində naxış oymağa başladı.

Belə baxanda, xudmani, Xruşşov dövründən qalma darısqal mənzil idi, amma onun anbara oxşar xəlvət guşəsi də vardı ki, oranı Nikolay Sergeyeviç çoxdan özü üçün emalatxana kimi bir yerə çevirmişdi.

Yayda-payızda bağ evinin yaxınlığındakı ağaclıqda gəzib-dolaşar, üzə çıxmış qəribə ağac kökləri, əyri-üyrü budaqlar, yaxud əksinə, hamar oduncaqlar tapar, topladıqlarını bir qədər də qurudar, sonra indiki kimi asudə vaxtlarında, əgər çox yorğun deyildisə, sabah-axşam emalatxanasında onlarla əlləşər, yavaş-yavaş həmin oduncaqlar nağıllardakı bədheybətlərə, ya da arıq, əyrimçə pərilərə, budaqlarsa kiçicik heykəllərə, qaşıqlara, xırdaca mücrülərə çevrilərdi.

Arvadıyla qızı üçün adiləşmişdi onun bu məşğuliyyəti; Nikolay Sergeyeviç oymaçılıqla uşaqlıqdan, Pionerlər sarayındakı dərnəyə gedəndən məşğul olurdu, davamlı şəkildə, səbrlə, bütün varlığına hakim kəsilən intizamla özünü bu işə verirdi.

Elə bu gün də, həmişəki, kimi tələsmədən iskənəsini-kəsərini masaya düzdü, müşəmbəli önlüyünü bağladı, cürbəcür ölçülü oduncaqları əlləşdirməyə, seçib-ayırmağa başladı. Onun dodaqları tərpəşirdi, lap astadan mızıldanır, oduncaqlara nəsə deyirdi. Ehtiyatla birini qoyub, o birini götürür, əlində fırladır, gözdən keçirir, artıq çıxıntıları xəyalında yonub, işin nəticəsini qabaqcadan görməyə çalışırdı... Belə anlarda Toloknov yaman dilxor olardı fikrini yayındırsaydılar, bərk acıqlanardı da; arvadı bunu bildiyindən, Nikolay Sergeyeviçə ancaq ən vacib

hallarda bir söz deyərdi. Çox zaman ərinin yenə iskənəylə yonmağa başlamasını gözləyər, yalnız bu məqamda onu söhbətə çəkərdi. Amma bu gün adətinə xilaf çıxdı.

– Nə olub, Valya? – arvadının sözlü adam kimi dəhlizdə var-gəl edib, diqqət çəkməyə çalışdığını sezən Toloknov narazı tərzdə soruşdu.

– Bağışla, Kolya, amma orada elə hadisələr olur ki... – qadın dərhal dilləndi, səsində də təşviş və çaşqınlıq. – İndicə xəbərlərdə dedilər: Primakov Amerikaya uçurmuş, yarıyoldan qayıdıb... Klinton bombalamaq əmri verib. Yəqin...

– Hə? – Nikolay Sergeyeviç oduncağı qırağa qoyub, arvadıyla birgə televizor olan tərəfə keçdi.

Neçə kanalda son xəbərləri tapıb, dönə-dönə baxdılar, dinlədilər. Beləcə, bütün günü, gözlərini ekrandan çəkmədən, yeni müharibə ocağının nə cür alovlandığını izləyə-izləyə keçirdilər.

Qəzəbləndilər, təəccübləndilər, dərdləşdilər.

– Düz eləyib Primakov, düz eləyib qayıdıb, – dedi Sergey Nikolayeviç. – Bir təsəvvür elə, onlar burda döşəyirlər, o da orada, təcavüzkarın evində... Bu ki ömürlük rüsvayçılıqdır!

– Əlbəttə, rüsvayçılıqdır, – arvadı ona şərik çıxdı. – Yox e, axı bu nə olan işdir ki, bir ölkə cızığından çıxdımı, sən qalxıb onu beləcə – raketlərlə, mərmilərlə cəzalandırasan?! Odur ha, bizim Çeçenistan da, deyəsən, elə onların Kosovosu kimi bir yerdir.

Toloknov qımışdı:

– Hə, tezliklə bizə də əl bulayarlar, narahat olma. Əvvəlcə Qrenadaya barmaq elədilər, alındı – səsini çıxaran olmadı, dalınca Liviyaya, İraqa, indi də, budur ha, serblərə. Sonra növbə bizə də çatacaq. Əgər indi gücümüzü göstərməsək, hesab elə, bizim də aqibətimiz bəllidi...

– O-oy – arvad vaysındı.

Amerikanların bu cür güc nümayişi Nikolay Sergeyeviçi lap özündən çıxarırdı. Yarım il əvvəl İraq bombalananda da televizorun qabağından aralanmırdı; Yuqoslaviyanın üstünü qara buludlar aldığını da görürdü, amma müharibə olacağına inanmırdı. İndi – bu gün dərk elədi ki, istənilən halda, dava başlanacaq. Bombardmançılar uçuşa hazırdırlar artıq; Klinton, Toni Bler, Havyer Solana açıqlama verirlər ki, zərbə endirmələri labüddür.

– Ay quldursifətlər, – Toloknov acığından əldəqayırma kreslonun oyma dəstəyini ovuşdura-ovuşdura söydü. – Bax e, almanlar da o tərəfdəndirlər! Əslində onların gərək ordusu-filanı olmaya, onsuz da bəs deyincə savaşıblar, alçaqlar...

Sözsüz ki, o, daha emalatxana hayında deyildi; heç əməlli nahar da eləmədilər, bircə çay içdilər. Nikolay Sergeyeviç yüzcə qram araq vurdu ki, bir az sakitləşsin. Axşama arvadı əlüstü ət qızardıb, vərməşil qaynatdı.

– Bir tikə yeyəkmi, Koli? – qadın, bütün gün ərzində danışdığı tərzdə – astadan, çəkinə-çəkinə soruşdu.

– İndilərdə Birinci kanalla xəbər buraxılışı gedəcək, – Toloknov verilişlərin proqramına baxa-baxa dilləndi. – Birdən başlamış olar...

Marina institutdan gəldi. Siyasətlə heç maraqlanmazdı, bu mövzuda nəyəsə həyəcanlı yanaşan valideynlərinə rişxənd etməyi də vardı, amma indi təlaşlı görünürdü. Divanda oturub, o da "Xəbərlər"i izləməyə başladı.

Nikolay Sergeyeviç qızının Qərb musiqisinə meyil göstərdiyini, dostlarıyla ingiliscə laqqırtı vurmağı xoşladığını bilirdi, özlüyündə bundan narazıydı. İndi isə Marinanı aşkar hiddətlə süzürdü, elə bil günah ondaydı; hətta qızın bütün kasetlərini, disklərini, ingiliscə kitablarını yığıb zibilliyə atmaq fikri də keçdi beynindən. Söz yox, səfeh niyyət idi, odur ki, Toloknov dərhal bundan daşındı, amma yenə içində qızına qarşı ziyansız da olsa, ürküdücü bir soyuqluq duydu.

– Gör sənin sevimli amerikanların nələr törətmək istəyirlər, bax, zövq al, – özünü saxlaya bilməyib dilləndi, başıyla da NATO hərbi texnikası göstərilən ekrana işarə etdi. – Quldurlar!

– Onlar mənlik deyil, – qızı cavab verdi. – Ən çox da bu kürən arvadbaz. Gicbəsər.

Nikolay Sergeyeviç deməyə söz tapmadı, arvadı isə qəmli-qəmli köks ötürdü:

– Hə-ə, Monika qalmaqalı bitən kimi təzə macəra tapdı özünə. – Azacıq susub sonra təklifini yenilədi: – Gedək yemək yeyək. Neyləmək olar...

Şam süfrəsi arxasında Toloknov onu məhz nəyin qəzəbləndirdiyini özü üçün ayırd etməyə çalışırdı. Hər halda, bu, təkcə növbəti, həm də ola bilsin, böyük bir savaşın yaxınlaşması, Amerika ilə müttəfiqlərinin həyasızlığı, serblərin qardaş xalq olmasına əzəli inam məsələsi deyildi. Toloknovu qorxudan, qəzəbləndirən daha nəsə vardı; elə bil onun özünü döyməyə hazırlaşırdılar, bu da onda müqavimət duyğusu oyadırdı. Həmin bu "nəsə" onu qıcıqlandırır, beynində hərlənir, ancaq son anda yoxa çıxır, qarışıq hisslərə dəqiq biçim verməli olan beyin hüceyrələrindən sıçrayıb uzaqlaşırdı.

Qəribəydi ki, Toloknov özünü gah nə cürsə zəif, müdafiəsiz bilirdi, sanki qaçıb gizlənmək istəyirdi, gah da əksinə, heç olmayan kimi güclü, həm özünü, həm də köməyə ehtiyac duyan başqalarını qorumağa qadir zənn edirdi; ona elə gəlirdi ki, nəhəng, yenilməz, ancaq indi nədənsə süst düşmüş orqanizmdəki möhkəm əzələnin minlərlə telindən biridir. Və bu qüdrətlə zəiflik, qorxuyla qətiyyət eynən sahilə çırpılan dalğalar kimi növbələşirdi: bir dalğa – qüdrət, sonrakı – zəifliklə qorxu.

Toloknov ətlə vərməşili könülsüz yeyə-yeyə fikrə dalmışdı, arvadıyla qızının söhbətinə məhəl qoymurdu.

"Bir dayan e, axı... – anlaşılmaz duyğuların kələfi qəfil çözülməyə başladı, – bu ki bizimdi. Bizimkidi!.."

– Koli, yenə çəkimmi sənə? – bu sualla arvadı onun fikrini yarımçıq qoydu.

Toloknov dilxor halda çəmkirib, boşalmış nimçəni ona sarı itələdi. Ağacdan oyma, parlaq naxışları üzə gülən qədəhi araqla doldurdu.

– Qulaq asın, axı Serbiya bizimkidir, – dedi. – Tarixən bizim torpaqdır! Bolqarıstan, Serbiya... Dinimiz bir, dilimiz yaxın, kökümüz eyni. Hələ bayrağımız da, məncə. Hə?.. Biz onları daima qorumuşuq: əvvəl türklərdən, sonra faşistlərdən. Bolqarlar bir vaxt bizdən onları da İttifaqa qoşmağı xahiş etmişdilər...

– Hm, Bolqarıstandakı faşizm heç də almanlardakından geri qalmazdı, – qızı Marina qınmışdı. – Serblər isə çoxdan kosovoluları boğaza yığıblar.

– Yalandır! – Toloknov hirsləndi. – Nə boş-boş çərənləyirsən?! Boğaza yığıblarmış...

– Düz deyirəm, ata. Tarixi oxusana.

Nikolay Sergeyeviç arvadına baxıb dəstək umdu, o isə eləcə çiyinlərini çəkdi.

Şam yeməyindən sonra kişi uzun müddət evdəki kitabları töküşdürüb baxdı: tarixə dair nəsə axtarırdı. Tapmadı, qızından istəməyi də özünə sığışdırmadı. Əlini yelləyib təzədən televizorun qabağında oturdu.

Gecədən keçmiş Rusiya prezidentinin çıxışı oldu. Kremldəki kabinetində idi, nəsə yeni, fərqli eynək taxmışdı. Klintonu nəhs, yanlış addımdan çəkinməyə çağırdı.

– Ayılıb! – Toloknov istehzayla, amma həm də sevinclə səsləndi, canına ılıq bir məmnunluq duyğusu yayıldı, nəhayət, gücdən düşmüş də olsa, silkinib özünü ələ alan, dişlərini qıcayan bir başçı görmüşdü sanki.

– E-eh, – arvadı saymazyana dilləndi, – yenə aşacaq böyrü üstə. Həmişə belədir...

– Hünəri də var, aşsın! Xalq bunu ona bağışlamaz.

– Ondan ötrü çox da fərq eləmir – bağışlayarlar, ya yox...

– Yaxşı, qoy qulaq asaq!

Arvadının sözləri Nikolay Sergeyeviçin heç xoşuna gəlmədi, ancaq mübahisəyə də girişmədi. Prezidentin çıxışını həris-həris dinləyib, neçə ildən bəri ilk dəfə onunla həmrəy oldu.

– Bəs əgər doğrudan başlansa, Koli, – arvadı az qala pıçıltıyla dedi, – axı onda sizi də gücləndirilmiş rejimə keçirərlər. Eləmi?

– Hə, ona söz yox. – Toloknov təsdiqlədi, arxayınlığının ardında nə cürsə bir qürur çaları gizliydi. – Orda başlansa, yüz faiz burda da sorağı çıxacaq. Elə dəqiq hiss edirəm ki!..

– Allaha pənah, bəlkə, heç rəva bilmədi...

Yox, başlandı. İlk raketlər Yuqoslaviya torpağına düşən kimi Amerika səfirliyinin önündə piketçilər peyda oldular. Binanın pəncərələrinə yumurtalar atıldı, cavan oğlanlar əsas giriş qapısına işədilər.

– Belə ha, belə, yaxşı olur! Nədir, elə bilirdilər, əl çalacağıq onlara?! – Nikolay Sergeyeviç etirazlara haqq verirdi. – Bombalarının cavabında qumbara da atmaq olar onlara. Qoy dadını bilsinlər!

II

Xidmət yerinə səhər səkkizdə, yuxulu da olsa, mübariz ovqatda gəldi Nikolay Sergeyeviç. Mülki geyimi uniformayla əvəzlədikləri soyunma otağında söhbət ancaq başlanmış hava hücumlarından, bombardmanlardan gedirdi. Aydın məsələdir, Qərbi yamanlayır, xidmətlə bağlı – ortaya çıxacağı bəri başdan bilinən – problemlərdən danışırdılar.

– Daha nəfəsimizi kəsəcəklər, – Toloknovun kabinet qonşusu leytenant Savin qaşqabaqlı dilləndi. – Ora-bura yayınmaq qurtardı daha.

– Cərgələnib dayanmaqdan canımız çıxar, bu, öz yerində, – iri uzunboğazlarının qaytanını möhkəmcə dartıb bağlayan gizir Çepurnin təsdiq üçün başını yellətdi. – Yaxşı ki, heç olmasa, yazdır.

Nikolay Sergeyeviç donquldandı:

– Təqvimdə elə olduğuna baxma... – Sonra da incik tərzdə, ucadan əlavə etdi: – Hazırlaşırdım, əkilim bağa, belə görürəm, hələ uzun müddət alınmayacaq...

Cədvəldə Toloknov üçün bu gün metronun "Kiyev" stansiyasında növbətçilik yazılmışdı, amma bunun əvəzinə, səhər toplanışında onu ən istəmədiyi yerə – ABŞ səfirliyinin yanına ezam elədilər.

– Buyur, "cərgələnmək" deyib vaqqıldayırdın, – Toloknov avtobusa tərəf gedəndə yanındakı Çepurninə bu cür tənə vurdu. – Heç xidmətin yeri yoxdur bu gün.

– Hm, hə, yaxşı olmadı. – Çepurnin üzünü turşudub çiyinlərini çəkdi: – Əldən nə gəlir... Mən də indi o sakit, sevimli "Smolenka" da oturub qəhvə dəmləmək, nəsə oxumaq istərdim...

Hardasa 3-ə qədər Devyatinsk döngəsinin içərilərində avtobusda oturub, tökülüşmək barədə əmr gözlədilər.

Cavanlar açıq-aşkar darıxır, mürgü vurur, Toloknovla yaşıdları isə söhbətləşirdilər:

– Əlbəttə, kömək üçün texnika verməliyik – bizdəki təzə zenit qurğularından, peyk sistemlərindən.

– Hava məkanına nəzarət üçün təyyarə eskadrilyası da göndərməliyik...

– Hi-hi... Demək asandır!

– Miloşeviç də çaqqalın biridir.

– O niyə?

– Hə də, son illər bizi vecinə almırdı ki. Elə bilirdi, öz əli-öz başıdır. İndi getsin, hoppansın...

– Miloşeviçin dərdini çəkmirik, insanlar var orda – serblər!

– Orası aydındır...

Səfirlikdən elə eyni məlumat gəlirdi: binanın önündə beş yüz nəfərlik bir kütlə var; yumurta, butulka, leço bankası, mürəkkəbqabı atırlar; bir neçə şüşə sındırıblar; viza almağa gələnləri fitə basırlar; ancaq hələlik ciddi bir şey yoxdur, vəziyyət nəzarət altındadır.

– İndi kef verəcəklər ameriqozlara, – Çepurnində xəbis bir sevinc vardı. – Çölə-bayıra buraxmayıb cırnadacaqlar.

Çoxbilmiş Qluşko əminliklə dilləndi:

– Onlar hələ gecədən şəhər kənarına, bağ evlərinə çəkiliblər. Qaxılıb oturacaqlar orada.

– Qoy vızqırtsınlar öz yerlərinə! Axı müharibə vaxtı səfirləri qovurlar... – cavan, üzüsızanaqlı serjant böyüklərin söhbətinə qarışdı; yersiz vəngildəyən küçük kimi baxdılar ona.

Saat 3-də əmr gəldi ki, səfirliyə doğru irəliləyib binanı sol tərəfdən dövrəyə alsınlar.

– Axır ki, – bekarçılıqdan bezmiş Toloknov rahatlıqla köks ötürdü.

Səfirliyin önündəki adamların sayı çoxdan beş yüzü aşıb, min beş yüzəcən artmışdı. Əksəriyyət gənclər, bir də təqaüdçülər idi. Kütlə aramsız uğuldayır, tez-tez eyni ahənglə nida qoparırdı: "Yu-qo-sla-vi-ya!", "Yan-ki, qou hom!"

Adamlar qırmızı, üçrəngli Rusiya və Yuqoslaviya, "Andreyev – donanma", göy "ereldepe" bayraqları, divar təqvimlərindən tezbazar düzəldilmiş plakatlar yelləduring.

Toloknovun bölüyü Devyatinsk döngəsinin Novinsk bulvarına qovuşan tərəfində – arxası səfirliyə, üzü isə yeraltı keçiddən çıxıb piketçilərə qoşulmağa can atan insan axınına sarı cərgəyə düzüldü. Əmr vardı ki, keçməyə qoymayın: onsuz da kütlə böyük, ehtiraslar qızğın...

Cavan uşaqlar – milis məktəbinin kursantları – dəmir çəpərlər gətirib səki boyunca quraşdırdılar...

– Bağlıdır keçid, bağlıdır! Vəssalam! Geri durun, – Toloknov adamları arxaya basıb çığırdı. – Geriyə!

Dünənki, səhərki düşüncələr bir dəqiqədə yox oldu, indi beynində ancaq xidmət, verilən əmrin, tapşırığın icrası vardı: piketçilərin yeni dalğasını səfirliyə yaxın buraxmamaq, vandalizm, ekstremizm hallarına yol verməmək.

Kütlənin içərisində ağxalatlı-ağpapaqlı tibb tələbələrinin peyda olması Toloknovu bir saniyəliyə çaşdırdı – Allah göstərməsin, onların arasında qızı Marina da ola bilərdi; amma bu, bircə saniyə çəkdi...

Və Nikolay Sergeyeviç, daha çox canfəşanlıq edib cərgəni yarmaq istəyən, içkili olduqları gözə girən cavanlara bağırdı:

– Soxulma! Qanmırsan?! "Geriyə" dedim!..

Onun solunda gizir Çepurnin həşirdə idi. Odur ha, saxlanılanlar da var artıq: qadağaya məhəl qoymayanları, binaya nəsə tolazlayanları yaxalayıb Devyatinsklə üzüaşağı aparırdılar; indi də piketçiləri Novinsk bulvarının gediş-gəlişli hissəsinə doğru sıxışdırıb, kütləylə səfirlik arasındakı məsafəni açırdılar.

Nikolay Sergeyeviç kütləyə qarşı qəzəb duyduğu kimi, onun əks-qəzəbini də hiss edirdi. Bu an kütləylə toqquşmaya, mücadiləyə hazır idi. Və yaxınlığındakı bir cavan uşaq Amerika bayrağı kimi rənglənmiş iri əskini odlayıb yelləndə Toloknov xatakarın üstünə sıçrayıb, onu asfalta yıxdı. Yanan əskini alıb tulladı, oğlanın qolunu arxaya qanırdı. Sonra da durğuzub, yaxınlıqda hazır dayanmış budkalı "QAZ"a tərəf apardı.

*Tərcümə*: **Seyfəddin Hüseynli**




## FRANSA

### Paris

Parisin ən böyük kütləvi və universal kitabxanalarından biridir. Kitabxana 1850-ci ildə memar Anri Labrust`un layihəsi əsasında inşa edilmişdir. Yerləşdiyi təpənin adı ilə adlanır. Kitabxananın fondu 2 milyon nüsxədən artıqdır. Orta əsrlərə aid əlyazmaların ən böyük kolleksiyası burada mühafizə olunur.

## MÜQƏDDƏS JENEVYEV KİTABXANASI



# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Mektebe qebul müsabiqe yolu ile heyata keçirilir. Müsabiqede iştirak etmek üçün mektebe gelmekle, bize zeng etmekle ve ya online qeydiyyatdan keçe bilersiniz.

**http://e.dunyaschool.az/sagirdqebul/**

Müsabiqede şagirdlerin tehsil aldıqları sinfe uyğun bilik seviyyesi, sağlamlığı, maraq dairesi esas götürülür. Her bir şagirdin ferdi xüsusiyyetlerini öyrenmek üçün valideynlerle söhbetler aparılır.

Qebul imtahanında en yüksek netice gösteren VIII-XI sinif şagirdleri teqaüd imkanı qazanırlar.

İngilis bölmesinde tedris Beynelxalq Bakalavr Teşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) esasında qurulur. Diplom proqramında tehsil müddeti iki ildir (X,XI sinifler).

Azerbaycan ve rus bölmelerinde ingilis dili ikinci dil kimi beynelxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman ve ya çin dili de öyredilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür ve tedris prosesinin teşkili bu yönümde qurulur. Siniflerde şagird sayının az olması her bir şagirde ferdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam telim-terbiye prosesinin yüksek seviyyede teşkiline kömek edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana Məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyetlerini öyrenmek üçün mektebin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayineden ve hekim müayinesinden keçirilir. Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairesi esas götürülür. Mektebe qebul edilecek şagirdler "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müeyyen edilir ve mekteb rehberinin emri ile resmileşdirilir.

Qəbul üçün tələb olunan sənədlər:

- Ərize
- 4 eded fotoşəkil (3x4, rengli)
- Doğum haqqında şehadetnamenin sureti
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

**ÜNVAN**

Əcemi Naxçıvani 9

**TELEFONLAR**

+994 12 563 59 40/47/48

+994 55 632 95 28

# XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

## NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

### TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

* Kompüter elmləri
* Kompüter mühəndisliyi
* Neft-qaz mühəndisliyi
* İnşaat mühəndisliyi
* Radiotexnika və telekommunikasiya mühəndisliyi
* Elektrik və elektronika mühəndisliyi
* Kimya mühəndisliyi
* Mexanika mühəndisliyi
* Riyaziyyat və informasiya müəllimliyi
* Fizika müəllimliyi

### 2 QRUP

* Mühasibat
* Maliyyə
* İqtisadiyyat
* Menecment
* Marketinq
* Biznesin idarə edilməsi
* Turizm işinin təşkili
* Regionşünaslıq (Avropa)
* Beynəlxalq münasibətlər
* Coğrafiya müəllimliyi

### 3 QRUP

* İngilis dili və ədəbiyyatı
* Azərbaycan dili və ədəbiyyatı
* Tərcümə (ingilis dili)
* Politologiya
* İngilis dili müəllimliyi
* Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
* İbtidai sinif müəllimliyi
* Tarix müəllimliyi
* Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

* Kimya müəllimliyi
* Biologiya müəllimliyi
* Kimya və biologiya müəllimliyi
* Psixologiya
* Baytarlıq təbabəti

### 5 QRUP

* Dizayn
* Təsviri incəsənət müəllimliyi